'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

30 DEKABR ŞƏNBƏ 2023 | 50 (4151) Qiymәti - 40 qәpik www.kaspi.az

31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür

YENİ İLİNİZ mübarək!

# YENİ İLƏ YENİ HƏDƏFLƏRLƏ

2023-cü ildə tarixi anlar yaşadıq. Prezident İlham Əliyevin rəhbərliyi ilə suverenliyimiz bərpa edildi, separatizmə son qoyuldu. Xankəndidə üçrəngli bayrağımız ucaldıldı.

## MOSKVA-BRÜSSEL-VAŞİNQTON DAVASI

İlin birinci yarısı Azərbaycanla Ermənistan arasında müxtəlif platformalarda sülh danışıqlarına şahidlik etdi. ABŞ dövlət katibi Antoni Blinkenin təşəbbüsü ilə XİN başçılarının Vaşinqtonda dörd gün davam edən görüşü keçirildi. Ardınca Rusiya xarici işlər naziri Sergey Lavrovun təşəbbüsü ilə tərəflər Moskvada bir araya gəldilər.

SƏHİFƏ 4-də

## XANKƏNDİDƏ UCALAN ÜÇRƏNGLİ BAYRAQ

2023-cü ildə baş verən ən önəmli hadisə 19-20 sentyabr tarixlərində Qarabağda aparılan lokal antiterror tədbirləri, bunun nəticəsi olaraq suveren ərazilərimizdə separatçı rejimin varlığına birdəfəlik son qoyulması, Xocalı, Ağdərə, Əsgəran da daxil olmaqla, Xankəndidə Azərbaycan bayrağının qaldırılması idi.



ÜÇ DƏRİN QƏZETİ Kaspi





## Bu yollar əsaslı təmir ediləcək

Prezident İlham Əliyev Bakı şəhərinin Yasamal rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Bununla bağlı President.az məlumat yayıb.

Sərəncama əsasən, Bakı şəhərinin Yasamal rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 350 min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Dövlət başçısı həmçinin, Şabran rayonunun Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (11 km)-Ağalıq-Daşlıyataq-Günəşli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, bu məqsədlə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq bir milyon manat ayrılıb.



## Azad edilən ərazilərdə 100-dən çox məktəb tikiləcək

İşğaldan azad edilən ərazilərdə 2026-cı ilə qədər 100-dən artıq yeni məktəbin tikintisi planlaşdırılır. Bu barədə elm və təhsil naziri Emin Əmrullayev AzTV-yə müsahibəsində deyib. Nazir qeyd edib ki, işğal dövründə məcburi köçkün məktəbi statusu var idi. Bu, özlüyündə qeyri-adi status idi. "Azərbaycanda məcburi köçkünlər qalmadığı kimi, məcburi köçkün məktəbləri də qalmasın. Böyük Qayıdış Proqramı çərçivəsində məktəblər, müəllim heyəti öz yurdlarına qayıdır. İnanırıq ki, həmin məktəblər Azərbaycan təhsili üçün keyfiyyətli təhsil xidməti göstərən məkana çevriləcək. Öz yurdlarına qayıdan insanlar arasında müəllimlər olur. İlk növbədə həmin şəxslərin yaşayış yerlərinə görə məktəblərə cəlb edirik", - deyə E.Əmrullayev bildirib.

# Azərbaycan və Ermənistan SÜLHƏ YAXINDIR



Nüfuzlu "The Guardian" nəşrində dərc olunan məqalədə qeyd edilib ki, Azərbaycan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsi üzərində nəzarəti tam bərpa edib. Azərbaycanın rəsmi şəxsləri Ermənistanla sülh sazişinin imzalanmasına yaxın olduqlarını deyiblər.

Nüfuzlu "The Guardian" nəşrində Azərbaycanla bağlı məqalə dərc olunub. Qeyd edilib ki, Azərbaycanın rəsmi şəxsləri ölkənin çoxillik münaqişəyə son qoymaq üçün Ermənistanla sülh sazişinin imzalanmasına yaxın olduğunu bəyan ediblər. Müəllif Patrik Vintur, Azərbaycanın antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsi üzərində nəzarəti tam bərpa etdiyini bildirib.

### BAKI İRƏVANIN CAVABINI GÖZLƏYİR

Vurğulanıb ki, iki ölkə münasibətləri normallaşdırmaq və sərhədləri qarşılıqlı tanımaqla sülh sazişinin imzalanması barədə danışıqları sürətləndirib. Oxucuların diqqətinə çatdırılıb ki, bu yaxınlarda hər iki tərəf xoş məram nümayiş etdirərək saxlanılan şəxsləri dəyişdirib. Eyni zamanda, tərəflər vasitəçi olmadan birgə bəyanatla çıxış ediblər.

Məqalədə bildirilib ki, dekabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev Sankt-Peterburqda Paşinyanla görüşüb. Tərəflər artıq sülh sazişi üzrə potensial və nisbətən qısahəcmli bir neçə layihəni mübadilə ediblər. Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov deyib ki, ölkə hazırda sonuncu sülh sazişi layihəsində göstərdiyi təkliflərə Ermənistanın cavabını gözləyir.



Elçin Əmirbəyov

"Anlamaq vacibdir ki, danışıqların belə bir həlledici mərhələsində biz gördüyü kimi, yekun sazişin imzalanmasından elə də uzaq deyilik, bu halda bizə nəticəyə gətirib çıxaracaq şeylər gərəkdir. Mən bilirəm ki, üç onillik ərzində davam edən və heç bir ciddi nəticələr verməyən danışıqlardan sonra tərəflərin hər birində müəyyən yorğunluq, üstəlik, hər hansı həqiqi nəticələr olmadan tərəflərin bir-biri ilə görüşlərinin hələ nə qədər davam edəcəyi ilə bağlı yaranmış məyusluq var", - deyə o qeyd edib.

## SÜLH SAZİŞİ LAYİHƏSİNİN BEŞ PRİNSİPİ

E.Əmirbəyovun sözlərinə görə, sülh sazişi layihəsinin beş prinsipi aşağıdakı maddələri ehtiva edir: bir-birinin ərazi bütövlüyünə, suverenliyinə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, indi və gələcəkdə bir-birilərinə qarşı hər hansı ərazi iddialarını və ziddiyyət təşkil edən hər hansı aktları, gücdən istifadə və ya güc tətbiq etmək hədəsi kimi BMT nizamnaməsinə zidd olan hər hansı hərəkətləri rədd etmək, eyni zamanda, Ermənistan ilə Azərbaycan arasında sərhədlərin delimitasiyası, iki ölkə arasında kommunikasiyaların və əlaqələrin qurulması.

## SƏRHƏDLƏRİN DEMARKASİYASI VƏ DELİMİTASİYASI MƏSƏLƏSİ

Sərhədlərin demarkasiyası məsələsi çətin olduğundan daha sonrakı mərhələdə də həll edilə bilər. Azərbaycan, həmçinin bu sazişin müəyyən mənada mübahisələrin həlli mexanizmini də nəzərdə tutmasını istəyir. "Biz, həmçinin yarana biləcək bütün mümkün anlaşılmazlıqları və fərqlilikləri yoluna qoya biləcək ikitərəfli komissiyanın yaradılmasını ehtiva edən maddənin sülh sazişində öz əksini tapacağı müqaviləyə nail olmağa üstünlük veririk", - deyə nəşr E.Əmirbəyovun sözlərindən sitat gətirir.

Müəllif, eyni zamanda, Naxçıvan məsələsinə də toxunur, 2020-ci ilin noyabrında imzalanmış Bəyanatda Paşinyanın Ermənistan ərazisindən keçməklə Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirən nəqliyyat kommunikasiyalarının açılmasına razılıq verdiyini bildirib.

"Biz bundan artıq vaxt itirə bilmərik. Üç il ərzində Ermənistan hətta 42 kilometrlik yolun texniki-iqtisadi əsaslandırılmasına başlamayıb. Əlbəttə, biz Ermənistanı üzərinə öhdəlik kimi götürdüyü işi görməyə vadar edə bilmərik, üstəlik, bu layihəni zorla da olsa həyata keçirmək üçün həmin ölkənin ərazisinə müdaxilə edəcəyimizi güman etmək də çox mənasızdır. Buna görə də, biz İrandan keçməklə avtomobil və dəmir yolu xəttinin inşası üçün Tehrana müraciət etdik", - deyə xüsusi tapşırıqlar üzrə nümayəndə qeyd edib.

# FRANSANIN CIRILAN MASKASI



**Fransa Cənubi Qafqazda yad ünsürdür. Bu ölkə bizim bölgənin ənənəvi geosiyasi aktoru deyil. Makron hakimiyyəti etnik və dini romantizmi kənara qoyub regiondakı perspektivlərə ayıq başla yanaşmayınca, belə fiaskolar davam edəcək.**



RÜSTƏM QARAXANLI

Fransa casus şəbəkəsinin Azərbaycanda ifşası Emmanuel Makronun Cənubi Qafqazdakı geosiyasi çabalarına ağır zərbədir. Yerli tarixin və bölgədəki reallıqların inkarı üzərində qurulmuş siyasətdən fərqli aqibəti gözləmək əbəs olardı. Avropanın Qərbindən Asiya ilə sərhəd olan bölgəsinə uzanan aqressiv siyasətin mövcud tarazlığın pozulması və sadəcə bir xalqa olan simpatiya üzərində qurulması onun əvvəlcədən iflasa uğrayacağına işarə idi. Baş verənlərdə məntiq var: Paris regional çəkişmədə Azərbaycana bütün müstəvilərdə biabırcasına məğlub oldu.



### PARİSİN NAŞILIĞI VƏ ÖZÜNƏ HƏDSİZ ARXAYINLIĞI

44 günlük müharibənin hərbi gedişatını dəyişə bilməyən Makron BMT-də ardıcıl məğlubiyyətlərdən sonra güclü mövqelərə malik olduğu Avropa İttifaqı müstəvisində də əliboş qaldı. Azərbaycan Avropanın müxtəlif kürsülərindən edilən təzyiq cəhdlərinə ümumiyyətlə, önəm vermədi. Bizim Fransa və Ermənistandan fərqli olaraq, qitənin ciddi dövlətləri, işgüzar dairələri və düşünən beyinləri ilə daha effektiv münasibətlərimiz var. Azərbaycanın xarici siyasəti real imkanlar, təsirli alətlər və gerçək gözləntilər üzərində qurulub. Şahmat taxtasında partiya başlamadan öncə rəqiblərin gedişlərini nəzərə almaqla yanaşı, cavab tədbirləri də hazır olmalıdır. Son 3 il sübut edir ki, rəsmi Bakı yaşadığımız reallığın təhdid və çağırışlarına hələ 27 sentyabr 2020-ci ildə hazır olub. Yeganə gözlənilməyən faktor Parisin naşılığı və özünə hədsiz arxayınlığıdır: BMT TŞ-nin 5 üzvündən biri kimi ciddi dövlət imicinə malik olmuş Fransanın həm özünü, həm də himayəsinə götürdüyü Ermənistanı “Qafqaz tələsi”nə salacağını öncədən təsəvvür etmək həqiqətən də çətindir. Fransız casuslarının deşifrə edilib Azərbaycandan qovulması Makron Fransasının acı reallıqlarının bariz göstəricisidir.

### QƏFLƏT YUXUSUNDAN OYANIŞ

MDB liderlərinin Sankt-Peterburqdakı qeyri-formal görüşündə Nikol Paşinyanın ənənəvi diskomfortundan savayı həm də çox bədbin görünməsi İrəvanda qəflət yuxusundan acı oyanışın təzahürü idi. Ermənistan hakimiyyəti Fransanın sakitləşdirici həblərindən oyanıb reallığın sərt tələbləri ilə üz-üzə qalıb. Paşinyanın tənhalığı, parlament sədri Simonyanın Azərbaycanla gələcək qonşuluğun romantik konturlarını cızması, diplomatdan çox demaqoq və şikayətçi olan XİN rəhbəri Mirzoyanın isə özünü boğub sülh gündəminə dair bəyanat verməsi bu gerçəkliyi dərketmə mənzərəsinin əlamətləridir. Yəqin ki, Paşinyan hökumətində bu aqibətdə Parisin fitvasının heç də sonuncu rol oynamadığını anlayanlar da var. Fransanın cırılmış maskası və zədələnmiş simasını nəzərə almasaq, maddi itkiləri böyük deyil: Senatda mənasız müzakirələr, ermənipərəst merlərin lüzumsuz qərarları və Ermənistana göndərilmiş ikinci əl zirehli hərbi maşınlar. İrəvanın son 3 ildəki itkiləri ilə müqayisədə Makronun “xərclər”i cüzidir. Bütün bunları kompensasiya etmək üçün iki ölkə arasında heç qarşılıqlı normal ticarət dövriyyəsi də yoxdur. Ermənistanın Rusiya ilə olan iqtisadi təmasları yanında Fransa ilə olan ticarətin cılız rəqəmləri gülünc görünür. Makronun geosiyasi kaprizlərini Fransa kimi dövlət növbəti hakimiyyətləri ərzində kompensasiya edə biləcək. Ermənilərə isə şirin yuxudan sadəcə xatirələr qalacaq.

## FRANSA CƏNUBİ QAFQAZ BÖLGƏSİNDƏ YAD ÜNSÜRDÜR



Fransanın şahmatın bu partiyasını da rəzil şəkildə uduzmasının başlıca səbəbi Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə təsirli xarici siyasət, resurslardan savadlı istifadə, “yumşaq güc”lə hərbi qüdrətin zamanında və bir neçə dəfə əvəzləməklə effektiv yararlanmasıdır. Ola bilsin ki, Parisdə Bakının potensialını kifayət qədər nəzərə almayıblar, ənənəvi şovinist diplomatiya Yelisey sarayında hədsiz arxayınlığa səbəb olub. Nəticə göz önündədir: geosiyasətdə məğlub Makronun regional ümidləri casus ifşası ilə puç oldu. Əks-kəşfiyyatımızın bu parlaq əməliyyatı Azərbaycanın bir ciddi dövlət olaraq dünyadakı imicinə əlavə rəng qatır. Cəmi 30 illik müstəqillik tarixi olan bir ölkənin zəngin tarixi olan nüvə dövləti - Fransaya qarşı demarşı beynəlxalq reputasiyamızı daha da gücləndirəcək.

Fransa Cənubi Qafqazda yad ünsürdür. Bu ölkə bizim bölgənin ənənəvi geosiyasi aktoru deyil. Makron hakimiyyəti etnik və dini romantizmi kənara qoyub regiondakı perspektivlərə ayıq başla yanaşmayınca, belə fiaskolar davam edəcək. Fransanın geoiqtisadi iştahasını nəzərə alsaq, gələcək itkiləri daha miqyaslı ola bilər. Afrikadakı çoxəsrlik mövqelərini itirdikdən sonra enerji istehsalı üçün xammalı - uranı Orta Asiyada axtaran Paris Bakı ilə normal münasibətləri nəzərə almağa məcburdur. Azərbaycan bu münasibətlərin hazırkı vəziyyətə gəlib çatmasında heç vaxt maraqlı olmayıb. Bunun bariz göstəricisi fransız şirkətlərinin problemsiz fəaliyyətidir. Fransa iqtisadiyyatının Xəzərdən əldə etdiyi gəlir Ermənistanla mövcud və perspektiv ticarətdən dəfələrlə çoxdur. Makron bu reallığı nəzərə almayınca Cənubi Qafqaz trekində məğlubiyyətə məhkumdur.

## AYAQ ALTINDA QALANIN CANI ÇIXSIN!

Şübhəsiz ki, Fransada romantik təşəbbüslərin siyasi dəhlizlərdə bir araya gətirdiyi populist siyasətçilərlə yanaşı, duruma soyuq başla baxan praqmatik peşəkarlar da var. Makron Fransasını “Qafqaz bataqlığı”ndan çıxarmaq qarşıdakı illərdə məhz onların üzərinə düşən yük olacaq. Ancaq bu fiasko tək Fransanın deyil, ümumilikdə Qərbin qeyri-adekvat yanaşmasının iflasıdır. Son 3 ildə Fransa ilə ABŞ hər vəchlə Ermənistan-Azərbaycan yekun sülhünü əngəlləməyə, yaxud ən azı ertələməyə çalışıblar. Minsk qrupu ənənələrinin bərpasına yönəlmiş bu cəhdlər nəticə etibarilə kollektiv Qərbin regional maraqlarına böyük zərbədir. Bu gün Ermənistan Azərbaycanın 3+3 təşəbbüsünə qoşulmaq məcburiyyətində qalıbsa, Qərb oyundankənar vəziyyətə düşməsinin səbəblərini Vaşinqtonda və Parisdə axtarmalıdır. Türkiyə-Rusiya-İran diplomatik trafiki Qərbin yarıtmaz siyasətinin reallığıdır. İtkiləri bərpa etmək üçün xeyli vaxt və çaba lazım olacaq. Necə deyərlər, ayaq altında qalanın canı çıxsın!

BU İL ƏLDƏ ETDİKLƏRİMİZ GƏLƏN İLƏ NİKBİN NOTLARLA BAXMAĞA ƏSAS VERİR

# YENİ İLƏ YENİ HƏDƏFLƏRLƏ

2023-cü ildə tarixi anlar yaşadıq. Prezident İlham Əliyevin rəhbərliyi ilə suverenliyimiz bərpa edildi, separatizmə son qoyuldu. Xankəndidə üçrəngli bayrağımız ucaldıldı.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az









Yola salmağa hazırlaşdığımız 2023-cü il Azərbaycanın ictimai-siyasi həyatında bir çox önəmli hadisələr və olaylarla yadda qalıb. Ümumilikdə, ulu öndərin adını daşıyan "Heydər Əliyev ili"ni müstəqillik tariximizin ən unudulmaz illərindən biri kimi xarakterizə edə bilərik.

**SƏFİRLİYƏ HÜCUM, DEPUTATA SUİ-QƏSD**

İlin əvvəlini heç də xoş xəbərlərlə qarşılamadıq. Yanvarın 27-də İrandakı səfirliyimizə silahlı hücum nəticəsində mühafizə xidmətinin rəisi - baş leytenant Orxan Əsgərov qətlə yetirildi, iki nəfər yaralandı. Nəticədə səfirliyimiz öz fəaliyyətini dayandırmaq məcburiyyətində qaldı.

Bu olayın ardınca daha bir səs-küylü cinayət xəbərini aldıq. Millət vəkili Fazil Mustafa evinə gedərkən silahlı hücuma məruz qalaraq yaralandı.

**BAKIDA İKİ ZİRVƏ GÖRÜŞÜ, İSRAİLDƏ SƏFİRLİK**

2023-cü ildə Azərbaycan beynəlxalq səviyyədə bir çox ilklərə imza atdı. Bakı dünyanın 120 ölkəsini özündə birləşdirən, BMT-dən sonra dünyada ən böyük beynəlxalq əməkdaşlıq platforması sayılan Qoşulmama Hərəkatının COVID-19-la bağlı Zirvə Görüşünə ev sahibliyi etdi. Bir müddət sonra Qoşulmama Hərəkatına üzv dövlətlərin rəsmiləri yenidən Azərbaycana gəldi. 30 ildən sonra İsraildə Azərbaycan səfirliyinin açılışı reallaşdı. Bu qərar Azərbaycan-İsrail strateji əməkdaşlığında yeni mərhələnin başlanğıcını qoydu.

**MOSKVA-BRÜSSEL-VAŞİNQTON QARŞIDURMASI**

İlin birinci yarısı Azərbaycanla Ermənistan arasında müxtəlif platformalarda sülh danışıqlarına şahidlik etdi. ABŞ dövlət katibi Antoni Blinkenin təşəbbüsü ilə Azərbaycan və Ermənistan XİN başçılarının Vaşinqtonda dörd gün davam edən görüşü keçirildi. Ardınca Rusiya xarici işlər naziri Sergey Lavrovun təşəbbüsü ilə tərəflər Moskvada bir araya gəldilər.

Müəyyən intervaldan sonra, Prezident İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Brüssel formatında görüş bərpa olundu. Mayın 25-də isə Moskvada Prezident İlham Əliyevin rusiyalı həmkarı Vladimir Putin və Nikol Paşinyanla üçtərəfli görüşü reallaşdı.

"Avropa siyasi birliyi"nin 2-ci Zirvə toplantısı çərçivəsində Kişineuda Azərbaycanla Ermənistan arasındakı sülh danışıqlarının növbəti raundu keçirildi. Bu proseslər sülh ümidlərini artırsa da, sonradan tərəflər arasındakı danışıqlarda uzun fasilə yarandı. Ümumiyyətlə, 2023-cü ildə beynəlxalq vasitəçilərin təşəbbüsü ilə reallaşdırılan bu müzakirələr Moskva-Brüssel-Vaşinqton qarşıdurması kimi qiymətləndirildi.



**XANKƏNDİDƏ UCALAN BAYRAQ**

2023-cü ildə baş verən ən önəmli hadisə 19-20 sentyabr tarixlərində Qarabağda aparılan lokal antiterror tədbirləri, bunun məntiqi nəticəsi olaraq suveren ərazilərimizdə separatçı rejimin varlığına birdəfəlik son qoyulması, oktyabrın 15-də Xocalı, Ağdərə, Əsgəran da daxil olmaqla, Xankəndidə Azərbaycan bayrağının qaldırılması idi. Bu tarixlər tək yola saldığımız ilin yox, müstəqil Azərbaycanın mövcud olduğu illərin ən mühüm əhəmiyyət kəsb edən anları idi.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin parlaq zəkası, dəmir iradəsi sayəsində onun rəhbərliyi ilə 30 illik işğal dövrü birdəfəlik bağlandı.

Ən sonda, ikitərəfli danışıqlar nəticəsində sülh prosesi yenidən canlandı.

**SÜRƏTLİ BƏRPA, MƏSKUNLAŞMA, YENİDƏNQURMA İLİ**

2023-cü il həm də işğaldan azad edilmiş ərazilərimizin sürətli bərpası və məskunlaşdırılması ili kimi də yadda qaldı. Noyabrın statistik göstəricilərinə əsasən, Böyük Qayıdış proqramı çərçivəsində Füzuli şəhərinə 308 (1 106 nəfər), Laçın şəhərinə 363 (1389 nəfər), Ağalı kəndinə 175 (871 nəfər), Talış kəndinə 20 (90 nəfər), Zabux kəndinə isə 121 ailə (476 nəfər) köçürülüb. Ümumilikdə, işğaldan azad edilmiş ərazilərə 987 ailə olmaqla 3 932 nəfər köçürülüb. 2026-cı ilin sonunadək 26 min ailənin tək Qarabağ iqtisadi rayonuna köçürülməsi nəzərdə tutulur.

**NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİ**

Bütün bu proseslərin fonunda Azərbaycan ilin sonunda ölkəmizin gələcək siyasi-iqtisadi inkişaf yolunu müəyyənləşdirəcək tarixi qərarın verilməsinə şahidlik etdi. Prezident İlham Əliyev növbədənkənar Prezidenti seçkilərinin elan edilməsi haqqında sərəncam imzaladı. Gələn il fevralın 7-də keçiriləcək seçki prosesi ilk dəfə olaraq müstəqil Azərbaycanın bütün suveren ərazilərində təşkil olunacaq. Evlərinə qayıdan keçmiş məcburi köçkünlər ilk dəfə olaraq ata-baba yurdlarında səsvermə hüquqlarından istifadə edəcəklər.

## UZUN İLLƏRDƏN SONRA XANKƏNDİDƏ FUTBOL BAYRAMI

2023-cü ildə idman sahəsində də çoxsaylı uğurlarımızın olmasına baxmayaraq, iki hadisə xüsusilə seçildi. "Qarabağ" klubu ilk dəfə olaraq Avropa Liqasının pley-off mərhələsinə vəsiqə qazandı. Ardınca isə 30 ildən sonra Xankəndi şəhər stadionunda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da izlədiyi iki yerli komandamızın - "Qarabağ" və MOİK-in qarşılaşmasına şahidlik etdik.

**"YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ"**

Yola saldığımız ildə əldə etdiklərimiz 2024-cü ilə daha böyük inamla baxmağımızı şərtləndirir. Elə ilin son günlərində Prezident İlham Əliyev tərəfindən Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinə də bu prizmadan yanaşmalıyıq. Gələn il Azərbaycan COP29 kimi mötəbər bir tədbirə ev sahibliyi edəcək. Sərəncamda da vurğulandığı kimi, bu tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın bariz nümunəsidir.

Yeni ilimiz uğurlu, düşərli olsun!

Kaspi





# 2024-CÜ İLDƏ DÜNYANI NƏLƏR GÖZLƏYİR?

Əksər müşahidəçilərin fikrincə, 2024-cü ilin təlatümlü olacağı gözlənilir. Hadisələrin necə inkişaf edəcəyi dörd ölkənin - Çin, ABŞ, Hindistan və Rusiyanın qarşılıqlı fəaliyyətindən asılıdır. Məhz bu dövlətlər 2024-cü ildə əsas oyunçular olacaqlar.

AZƏR NURİYEV

Başa çatmaqda olan 2023-cü il, əvvəlki ildən demək olar ki, fərqlənmədi. Ukraynada müharibə davam etdi, Sakit Okeanda gərginlik səngimədi. Yalnız Yaxın Şərqdə HƏMAS-la İsrail arasında ənənəvi müharibə qızışdı və bu, ilin ən yaddaqalan hadisəsi oldu.

**TƏLATÜMLÜ İL PROQNOZU**

Bəs 2024-cü ildə dünyanı nə gözləyir? Dünya sülhə, yoxsa siyasi, iqtisadi və hərbi münaqişələrə doğru irəliləməkdə davam edəcək? Əksəriyyət hesab edir ki, 2024-cü il üçün mənzərə optimist görünmür. Rusiya ilə bütün dünyanın mübarizəsinin davam edəcəyi proqnoz edilir. Belə ki, nə Rusiya geri çəkilənə oxşayır, nə də Ukrayna torpaqlarını güzəştə gedənə. ABŞ və Çin arasında da gərginliyin artacağı istisna edilmir, rəqib geosiyasi bloklar da yarana bilər. Əksər müşahidəçilərin fikrincə, qarşıdan gələn 2024-cü ilin təlatümlü olacağı gözlənilir. Proqnozlara görə, gələn il Afrikada hərbi əməliyyatlar güclənəcək. Bütövlükdə isə hadisələrin necə inkişaf edəcəyi dörd ölkənin - Çin, ABŞ, Hindistan və Rusiyanın qarşılıqlı fəaliyyətindən asılı olacaq. Bu dövlətlər 2024-cü ildə əsas oyunçular olacaqlar.




**UKRAYNADA MÜHARİBƏ DAVAM EDƏCƏK**

Rusiya ilə Ukrayna arasında gərginliyin gələn il davam edəcəyi mütləqdir. Lakin müharibənin əvvəlki illərdəki kimi olmayacağı proqnoz edilir. Səbəb Ukraynanın Qərb dövlətlərindən yetərincə dəstək almamasıdır. Lakin Ukrayna Prezident Ofisinin müşaviri Mixaylo Podolyak bu fikri bölüşmür. Onun fikrincə, Ukrayna problemlərə baxmayaraq, müharibədə uğur qazana bilər.

**"DÜNYA O ZAMAN SABİTDİR Kİ, QÜVVƏLƏR BALANSI VAR"**

2022-ci ildə başlayan dünyanın yenidən bölünməsi prosesinin 2024-cü ildə də davam edəcəyi proqnozunu çoxları bölüşür. Məsələn, politoloq Qriqori Savelyev hesab edir ki, dünya o zaman sabit olur ki, qüvvələr balansı yaranır və heç kim onu öz xeyrinə poza bilmir. Məsələn, 1945-ci ildə Yalta konfransından sonra SSRİ və kollektiv Qərb dünyanı təsir dairələrinə böldülər və bir dünya nizamı formalaşdı. SSRİ-nin dağılmasından sonra dünya birdən-birə birqütblü oldu və dövlətlər onu öz maraqlarına uyğun olaraq yenidən qurmağa başladılar. Rusiya SSRİ-nin bir parçası olaraq bunun qarşısını ala bilmədi - həm iqtisadi, həm də siyasi baxımdan çox zəif idi. Üstəlik, Rusiya hətta ABŞ hegemonluğu ilə də razılaşdı - yəni, istədiyinizi edin, amma bizə toxunmayın. Lakin hegemonluq nisbidir. O, bəzi şeyləri idarə edə bilir, bəzilərini yox. Bunun da nəticəsi Ukrayna münaqişəsi oldu.

## YAXIN ŞƏRQDƏ GƏRGİNLİK DAVAM EDƏCƏK

Gələn il Yaxın Şərqdə də vəziyyətin gərgin olacağı proqnoz edilir. HƏMAS-İsrail müharibəsi ilə yanaşı, Yəməndəki husi qiyamçılarının Qırmızı dənizdə gəmilərə, neft tankerlərinə hücumunun davam edəcəyi gözlənilir. Bu, regionda yeni münaqişə ocağının yaranması kimi də dəyərləndirilir. Ağ Evin milli təhlükəsizlik məsələsi üzrə sözçüsü Con Kirbi su hövzəsində baş verən hadisələrə toxunaraq bildirib ki, husilər hücumları dayandırmalıdırlar. Bu günlərdə qiyamçılar İsraillə bağlılığı olan gəmilərə, tankerlərə hücum edəcəklərini açıq şəkildə bildiriblər. Husilərin təhdid və hücumlarını neytrallaşdırmaq üçün ABŞ-nin təşəbbüsü ilə Böyük Britaniya, Kanada, Fransa, İspaniya, İtaliya, Niderland, Norveç, Bəhreyn, Seyşel adalarının daxil olduğu koalisiya yaradılıb. Qırmızı dənizdə gəmilərə və tankerlərə hücumu husilərin reallaşdırdığı iddia olunur. Təbii sual yaranır: bu əməllərdə İran hakimiyyətinin barmağı varmı? Bu il İran, Rusiya və Çin Hind okeanında və körfəzdə dəfələrlə hərbi manevr keçirib. Hətta bu su hövzəsində üçlükdən ibarət güclü bir ittifaqın yaranacağı da ehtimal olunur.

İsrail- HƏMAS hərbi münaqişəsinə gəldikdə, müharibə nəinki İsrailin ərəb ölkələri ilə kifayət qədər uğurlu danışıqlarına son qoyub, həm də onları İsrailə qarşı birləşdirib. Bu yaxınlarda BMT Baş Assambleyasında Qəzzada müharibənin dərhal, qeyd-şərtsiz dayandırılması ilə bağlı səsvermə keçirilib. Qətnaməni 193 üzv dövlətdən 153-ü dəstəkləyib, ABŞ və İsrail də daxil olmaqla, yalnız 10 ölkə əleyhinə səs verib, İngiltərə və Almaniya da daxil olmaqla 23 dövlət bitərəf qalıb. ABŞ və İsraili Papua Yeni Qvineya, Paraqvay, Avstriya, Çexiya, Qvatemala, Liberiya, Mikroneziya və Nauru kimi ölkələr müdafiə edib.

**RUSİYA VƏ ABŞ-DƏ PREZİDENT SEÇKİLƏRİ KEÇİRİLƏCƏK**

Gələn il həm də iki fövqəldövlətdə - Rusiya və ABŞ-də seçkilər ilidir. Rusiyada martda, ABŞ-də ilin sonunda prezident seçkiləri baş tutacaq. Belə görünür ki, Putinin taleyini ABŞ seçkilərinin nəticəsi müəyyən edəcək. Tramp hakimiyyətə gəlsə və dəstəyini geri götürsə, Ukraynada yalnız Avropa qalacaq.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

İLLƏRDİR MÜZAKİRƏ OLUNAN RƏQABƏT MƏCƏLLƏSİNİN DƏ GƏLƏN İL QÜVVƏYƏ MİNMƏSİ GÖZLƏNİLİR

# 2024-CÜ İLDƏ QÜVVƏYƏ MİNƏCƏK QANUNLAR

Gələn il sosial-iqtisadi həyatımıza ciddi təsir göstərəcək qanunların qüvvəyə minməsi gözlənilir. Buraya hərbçilərin pensiya təminatı, Rəqabət Məcəlləsi, bank əmanətlərinin vergiyə cəlb olunması üzrə dəyişikliklər və digərləri aiddir.

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Qüvvəyə minən hər qanun həyatımız üçün əhəmiyyətlidir. Maraqlıdır, 2024-cü ildə qüvvəyə minəcək qanunlar hansılardır? “Kaspi” qəzeti 2024-cü ildə qüvvəyə minəcək qanun layihələrini və onların mahiyyətini araşdırıb.

### DÖVLƏT BÜDCƏSİ

Dövlətin hüdudlarında yaşayan hər kəsi maraqlandıran əsas məqam dövlət büdcəsidir. Prezident İlham Əliyev Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında Qanunu imzalayıb. Bununla gələn ilin dövlət büdcəsinin gəlirləri 34 173 000,0 min manat, xərcləri 36 763 000,0 min manat məbləğində təsdiq edilib.

### YAŞAYIŞ MİNİMUMU

Həmçinin, 2024-cü ildə ölkədə yaşayış minimumu da dəyişir. 2023-cü il üçün yaşayış minimumu ölkə üzrə 246 manat, əmək qabiliyyətli əhali üçün 261 manat, pensiyaçılar üçün 199 manat, uşaqlar üçün 220 manat məbləğində müəyyən edilmişdi. Prezidentin imzaladığı “Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında” Qanuna əsasən isə, 2024-cü il üçün yaşayış minimumu ölkə üzrə 270 manat, əmək qabiliyyətli əhali üçün 287 manat, pensiyaçılar üçün 222 manat, uşaqlar üçün 235 manat məbləğində müəyyən edilib. Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

### HƏRBÇİLƏRİN PENSİYASI ARTIRILIR

Növbəti qüvvəyə minəcək qanun pensiya yaşı ilə bağlıdır. Belə ki, əsasən hərbçiləri əhatə edən məsələlərlə bağlı qanun layihəsi hazırlanıb. Dəyişikliyə əsasən, hazırlanmasına dövlət tərəfindən zaman və resurs sərf edilmiş hərbi qulluqçuların formalaşmış təcrübəsindən daha uzun müddət istifadə etmək məqsədilə hərbi qulluqçu kimi pensiyaya çıxmaq üçün minimum xidmətkeçmə tələbinin 20 təqvim ilindən 25 təqvim ilinə çatdırılması təklif olunur. Dəyişiklik hərbi qulluqçuların pensiya təminatında hər hansı azalmanı istisna etməklə, bir sıra qurumların hərbi qulluqçularının pensiya təminatında artımı nəzərdə tutur. Belə ki, minimum xidmət müddətinin artırılması ilə yanaşı, həmin dövrə görə qulluq əlavəsi faizinin də 50 faizdən 65 faizə qaldırılması təklif edilir. Qanun layihəsinin yanvarın 1-dən qüvvəyə minməsi nəzərdə tutulub.

### 2024-CÜ İLDƏ “YAŞAMAĞA BAŞLAYACAQ”

Yeni ilin növbəti qüvvəyə minəcək qanunu dövlət satınalmaları ilə bağlıdır. “Dövlət satınalmaları haqqında” qanunun 2023-cü ilin iyulun 14-də imzalanmasına baxmayaraq, tətbiqi 2024-cü il yanvarın 1-nə nəzərdə tutulub. Bu qanunun əsasında BMT-nin və Avropa Birliyinin satınalmalar üzrə prinsipləri durur. İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli mətbuata açıqlamasında bu qanunun 2024-cü ildə tətbiqinə başlanılacağı bildirib.

### UTİLİZASİYA HAQQI

Növbəti ildə avtomobillərlə bağlı 2 qanun qüvvəyə minəcək. Birincisi, avtomobillərin idxalı məsələsidir. Belə ki, 2024-cü il yanvarın 1-dən 2013-cü ilə qədər istehsal olunmuş avtomobillərin idxalına məhdudiyyət qoyulacaq. İkinci vacib məqam isə sürücülərin utilizasiya haqqı ödəmələri ilə bağlıdır. Belə ki, bununla bağlı müvafiq təlimata dəyişiklik edilib. Qərara əsasən, nəqliyyat vasitəsinin dövlət texniki baxışı keçirilərkən sürücülərdən dövlət rüsumu ilə yanaşı, utilizasiya haqqının sənədi də tələb ediləcək. Yəni texniki baxışının həyata keçirilməsi zamanı, dövlət rüsumu ilə yanaşı, utilizasiya haqqı da ödənilməlidir. Bu qərar fevralın 1-dən qüvvəyə minəcək.






### 15 İLDƏN ÇOXDUR Kİ, GÖZLƏYİRDİK

Yeni ildə qüvvəyə minməsi gözlənilən önəmli qanunlardan biri də Rəqabət Məcəlləsidir. Məcəllə 2006-cı ildə hazırlanaraq Milli Məclisə təqdim edilib. 15 ildən çoxdur ki, müzakirə edilən sənəd nəhayət ki, parlamentdə qəbul edilib və 2024-cü il iyulun 1-də qüvvəyə minəcək. Məcəllə hökmran mövqedən sui-istifadənin qarşısının alınması və rəqabət neytrallığının təmin edilməsinə xidmət etməklə yanaşı, sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılmasına da imkan yaradacaq.

## YANVARIN 1-DƏN VERGİ MƏCƏLLƏSİNƏ DƏYİŞİKLİK QÜVVƏYƏ MİNƏCƏK

2024-cü ilin yanvarın 1-dən Vergi Məcəlləsinə dəyişiklik də qüvvəyə minəcək. Belə ki, vergi güzəştlərinin müddətləri artırılıb. Fiziki şəxslərin gəlirlərinə düşən vergi yükünün azaldılması məqsədilə bəzi kateqoriyalı fiziki şəxslərə verilən güzəştlərin həcminin artırılması və bir sıra gəlirlərinin vergiyə cəlb olunan gəlir bazasına aid edilməməsi nəzərdə tutulub. Eyni zamanda sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi məqsədi ilə, maliyyə lizinqinin vergiyə cəlb edilməsi mexanizminin sadələşdirilməsi, ictimai və sosial məqsədlər üçün ödənilən vəsaitlər üzrə mənfəət vergisindən azad olan hissənin artırılması, bir sıra təsərrüfat sahələri üzrə mülkiyyət vergiləri üzrə əlavə güzəştlərin verilməsi nəzərdə tutulub.

### BU XİDMƏTLƏR VERGİDƏN AZAD EDİLİR

2024-cü ilin növbəti dəyişikliyi banklarda əmanətləri olanlarla bağlıdır. Gələn ildən Azərbaycanda bank əmanətləri üzrə faiz gəlirlərinin vergiyə cəlb olunması qaydası dəyişir. Belə ki, yerli bank və xarici bankın Azərbaycandakı filialı tərəfindən fiziki şəxslərin hər bir bankda (xarici bankın Azərbaycandakı filialında) milli valyutada olan depoziti 18 ay və daha artıq müddətə yerləşdirildikdə və depozitin məbləği 18 aydan tez olmayaraq ödənildikdə hesablanan faiz gəlirlərinin tam hissəsi üç il müddətinə vergidən azad edilir. Bundan başqa, qanunvericiliyə hər bir bankda milli valyutada olan əmanətlər üzrə hesablanan aylıq faiz gəlirlərinin 200 manatadək hissəsinin fiziki şəxslərin gəlir vergisindən azad edilməsi ilə bağlı dəyişiklik olunub. Digər hallarda faiz gəlirlərindən banklar tərəfindən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulması nəzərdə tutulur. Bu, həm milli, həm də xarici valyutada olan faiz gəlirlərinə aid ediləcək.



# ƏMLAK QiYMƏTLƏRi GƏLƏN il də əl yandıracaq

Çoxmənzilli binalarda qiymətlər qalxdıqca, bu, təkrar mənzil bazarına da təsir göstərir. Əgər yenitikililərdə mənzillərin bir kvadratmetri 3000 manata təklif olunursa, təkrar mənzil bazarında bir kvadratmetrini 1500-2000 manata satan da ona baxıb qiyməti ən azı 2500 manat edir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2023-cü illə vidalaşırıq. Bu il yaddaşımızda həm də bahalaşma ilə qalacaq. İnflyasiyanın ən çox zərbə vurduğu sahələrdən biri də daşınmaz əmlak bazarı və mənzil kirayəsi sektorudur. Vətəndaşlar da, ekspertlər də mənzil qiymətlərindən şikayətçidirlər. Bəs 2024-cü ildə bu sahədə bizi nə gözləyir? Ev sahibi olmaq istəyən şəxslərin bu il üzü güləcəkmi?

### "GƏLƏN İL KİRAYƏLƏR UCUZLAŞACAQ"

Əmlakçı Samir Rüstəmov dedi ki, gələn il bu sektorda ciddi qiymət artımları gözlənilmir: "2023-cü ildə qiymətlər onsuz da qalxıb. Amma 2024-cü ildə yenitikililərdə çox da artım olacağını gözləmirəm. Köhnə tikililərin qiymətində az da olsa artım var. Hazırda bazarda durğunluqdur. Bu zaman çox da böyük artımlar olmur. Kirayə bazarında isə qiymətlər fantastik həddədir. Əvvəl 450-500 manata olan evlərin qiyməti indi 700 manata qalxıb. Amma gələn il kirayə bazarında da elə böyük qiymət artımları olacağını düşünmürəm. Əksinə, gələn il üçün kirayə bazarında ucuzlaşma gözləyirik".

### 10 FAİZƏ QƏDƏR YÜKSƏLMƏ QAÇILMAZDIR

Əmlak məsələləri üzrə ekspert Ramil Qasımzadə isə düşünür ki, gələn il də mənzil qiymətləri bahalaşmaya doğru inkişaf edəcək: "Sıçrayışlı artım gözləməsək də, ən azı 10 faizə qədər yüksəlmə qaçılmazdır. Bunu deməyə əsas verən səbəblər var. Məsələn, artıq bazarda ucuz mənzillər qıtlaşır,



təklif tədricən azalır. Tələb isə həmişə yüksək olaraq qalır. Digər əsas səbəblərdən biri bu il Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tələbləri sərtləşdirməsindən sonra çoxmənzilli binaların tikintisi ilə məşğul olan şirkətlərin tikintiyə sərf etdikləri maya dəyərinin artmasıdır. Qiymətin qalxmasının digər səbəblərindən biri də torpaq sahələrinin məhdudlaşması və torpaq bazarında olan bahalaşmadır. Bu gedişlə qiymətlər gələn il də artacaq".

Ekspert qeyd etdi ki, regionda baş verən proseslər də daşınmaz əmlak bazarına birbaşa təsir göstərir: "Rusiya-Ukrayna müharibəsi, İsrail-Fələstin münaqişəsi daşınmaz əmlak bazarımıza təsirsiz ötüşmür. Xüsusən də qonşu ölkələrdən daşınmaz əmlak almaq üçün insanların ölkəmizə gəlməsi həm kirayə bazarı, həm də mənzillərin qiymətlərini bahalaşdırır".

## SATIŞ QİYMƏTLƏRİ ÜÇ MİN MANATDAN YUXARI TƏKLİF OLUNUR

R.Qasımzadə bildirdi ki, artıq kənar ərazilərdə belə, bir kvadratmetri 1000 manatdan aşağı mənzil tapmaq mümkün olmayacaq: "Keçən il deyirdik ki, kvadratmetri 1500 manata ev görməyəcəyik. Amma gələcəkdə 2000 manata da tapa bilməyəcəyik. Çünki bir kvadratmetr üzrə qiymətlər üç min manata doğru inkişaf edir. Paytaxtın mərkəz hissələrində əvvəllər çoxmənzilli binalardan bir kvadratmetri 1500 manata ev tapmaq olurdusa, indi artıq mümkün deyil. Çünki qiymətlər 2000-2500 manat aralığındadır. Bir qədər kənarlarda - Qaradağ, Suraxanı, Sabunçu kimi rayonlarda əvvəl bir kvadratmetri 800-900 manata mənzil tapmaq mümkün idisə, artıq orada da qiymətlər 1200-1500 manat aralığında dəyişir. Tam mərkəz hissələrdə isə evlərin bir kvadratmetri 3000 manat və ondan daha yuxarı təklif olunur".

### "TÖKÜLƏN" BİNALARDA EVLƏR 100 MİN MANATDIR

Ekspertin fikrincə, çoxmənzilli binalarda qiymətlər qalxdıqca, bu, təkrar mənzil bazarına da təsir göstərir: "Əgər yenitikililərdə bir kvadratmetr 3000 manata təklif olunursa, təkrar mənzil bazarında bir kvadratmetrini 1500-2000 manata satan da ona baxıb qiyməti ən azı 2500 manat edir. Nərimanov ərazisində təkrar mənzil bazarında "xruşşovka" layihəli binaların bir kvadratmetrinin qiyməti üç min manata çatıb. "Xruşşovka" layihəli bir otaqlı mənzillər 100 min manat və daha artıq qiymətə təklif olunur. "Kiyev", "Leninqrad", "xruşşovka", "Minsk" layihəli köhnə binalar sökülür, yerinə çoxmənzilli yeni tikililər inşa edilir. Yenisi tikildikdən sonra daha baha qiymətə təklif olunur. Bu da qiymətlərə təsirini göstərir. Bir sözlə, ucuz mənzillərlə vidalaşmalı olacağıq".

## FƏRDİ YAŞAYIŞ EVLƏRİ DƏ BAHALAŞACAQ

Müsahibimiz qeyd etdi ki, gələn il hətta fərdi yaşayış evləri də bahalaşacaq: "Həyət evlərində torpaq sahələrinin qiymətinin artması, oktyabrın 1-dən etibarən sənədi olmayan fərdi həyət evlərinin inşasına məhdudiyyətlərin tətbiq edilməsi və kommunalla təminatın həyata keçirilməməsi onu deməyə əsas verir ki, onlarda da bahalaşmanı müşahidə edəcəyik. Fərdi yaşayış evlərinin qiymətinə birbaşa təsir göstərən əsas amil torpaq sahələri ilə bağlıdır. Bir neçə ildir ki, Bakıda torpaq sahələrinin qiyməti artır. Tikinti materialları qiymətlərə o qədər də təsir göstərmir, amma torpaq sahələrinin qiymətinin artması fərdi yaşayış evlərini bahalaşdırır".

### BU EVLƏRİN KİRAYƏ QİYMƏTİ DƏYİŞMİR

R.Qasımzadə kirayə mənzil bazarından da danışdı: "Həm çoxmənzilli binalarda, həm də təkrar mənzil bazarında qiymətlərin artması kirayə mənzil bazarına da təsir göstərir. Bu il kirayə mənzil bazarında qiymətlər stabildir. Keçən il kirayə qiymətlərdə 20-25 faizə qədər artımın şahidi olduq. Amma gələn il üçün ən azı yaya qədər qiymətlərin sabit qalacağını düşünürəm. Yayda qiymətlərdə azalma da ola bilər. Hər il tələbələrin regionlara üz tutması ilə əlaqədar kirayə qiymətlərində enmə müşahidə edilir. Amma cari ildə bu da yaşanmadı".

Ekspert bildirdi ki, həyət evləri kirayə üçün ən stabil variantlardandır: "Çünki həyət evlərində 150 manatdan beş min manata qədər istənilən qiymətə kirayə evlərə rast gəlmək mümkündür. Qiymətlər həyət evinin təchizatına, rahatlıq imkanlarına, şəraitinə görə dəyişir".

### GÜNLÜK KİRAYƏ MƏNZİLLƏR

2024-cü ildə ölkəmizdə keçiriləcək beynəlxalq tədbirlərin əmlak qiymətlərinə təsirinə gəlincə, müsahibimiz dedi ki, günlük kirayə mənzillərin qiymətlərində artımlar ola bilər: "Formula-1", "COP 29" kimi tədbirlər əsasən sutkalıq mənzil bazarına təsir göstərir. Aylıq kirayə bazarına bir qarışacağı yoxdur. Məsələn, günü 50 manata kirayə verilən mənzillər belə tədbirlər olan ərəfələrdə 80-150 manata olur".



Ramil Qasımzadə

JURNALİST, BLOGER VƏ SƏYYAH AZƏR QƏRİB: “MƏN ARZU EDİRƏM Kİ, İNSANLAR SƏYAHƏT ETSİNLƏR!”

# SƏYAHƏTLƏR HƏYATI DƏRK ETMƏYƏ KÖMƏK EDİR

SÖHBƏTLƏŞDİ

Tərənə Məhərrəmova
taranamaharramova@kaspi.az

**Azər Qərib:** “Yerli turizmdə ən böyük problem xidmət sahəsindədir. Hotel biznesində, restoranların xidmət sektorunda problem var. Müştərilərə xidmətdə təcrübə çatışmır”.

“Sizi səyahətə sövq edən nədir?”- soruşanda “Həvəs, enerji, maraq...” cavabını verir. Yeni məlumatlar əldə etmək, fərqli ölkələr, mədəniyyət, tarix və adət-ənənələrlə tanışlıq onda motivasiya yaradır. Hər səfərində yeni insanlarla görüşməkdən zövq alır. Həm Azərbaycanı onlara təqdim edir, həm də onların ölkələri haqqında məlumatlar qazanır. Bu, uzun illərdir belədir. Jurnalist, bloger və səyyah Azər Qərib təkcə “Qərib Azər” və “Oralar” verilişləri ilə insanları səyahətə ruhlandırmır, həmçinin səyahət etməyin gərəkliliyini anladır...

● **Dünya səyahətinə çıxmaq bir növ dəbə çevrilir. Sizcə, Marko Polo olmaq asandır?**

● (gülür) Əslində, yaxşı dəbdir. İnsanlar səyahət edirlərsə, demək onların maddi vəziyyətləri yaxşılaşır. İnsanlar səyahət edirlərsə, demək onlar nəyisə öyrənmək istəyirlər, dünyagörüşləri, savadları artır. Müqayisə edirlər, yenilikləri öyrənirlər. Mübadilənin yalnız xeyri var. Səyahətlər həyatı dərk etməyə kömək edir, həyat da səyahət etməyi... Qoy səyahət elə dəbə çevrilsin.

### RƏSMİ SƏFƏRLƏRİN QEYRİ-RƏSMİ TƏRƏFİ

● **“Nizami” kinoteatrında “Bir səfərin izi ilə” filminin təqdimatını keçirdiniz. Ulu öndərin rəsmi səfərinin qeyri-rəsmi tərəfləri tamaşaçılarda həqiqətən maraq doğurdu. İdeya necə yarandı?**

● Mən siyasi reportajlarla hələ gənclik illərimdən maraqlanırdım. Onda ölkə qapalı idi, gediş-gəliş yox idi, sərhədlər bağlı idi. Bizə Brejnevin, Kosıginin, Podqornının rəsmi səfərlərini göstərirdilər. Həmişə düşünürdüm ki, rəsmi səfərə gedən siyasi lider sonra həmin ölkədə nə edir? Muzeyə gedirmi, küçədə adi insanlarla görüşürmü? Bu ideya beynimdə yaşayırdı. Ölkədə Heydər Əliyevin 100 illiyi ilə bağlı müxtəlif tədbirlər keçirilirdi. Mən də “Nə edə bilərik ki, orijinal baxış olsun?” - deyə düşünürdüm. Rəsmi tədbirlər çox idi və əlbəttə, hamısı da çox lazım idi. Amma Ulu öndərin rəsmi görüşlərinin qeyri-rəsmi tərəfi kölgədə qalmışdı. Mən bu ideyanı filmin redaktoru Ayaz Mirzəyevlə müzakirə etdim, o da həvəslə dəstəklədi. Layihə üzərində işlədik, materialları müvafiq qurumlara göndərdik və ideya gerçəkləşdi.

● **Bəs niyə məhz İtaliyanı seçdiniz?**

● Bir neçə ölkəni nəzərdən keçirirdik. O vaxt Heydər Əliyevin köməkçisi olmuş Dilarə Seyidzadə ilə məsləhətləşdik. O dedi ki, bu səfərlərin içərisində ən rəngarəng və parlaq görüşlərlə zəngin olanı İtaliya səfəri olub. Həmçinin Yaponiyanın, Çinin adını çəkdi. Mənim özümün də İtaliyaya xüsusi rəğbətim var. Həm də, videoarxivləri izləyəndə Heydər Əliyevin də İtaliya mədəniyyətinə böyük sevgisi olduğunu müşahidə etdik. Əlbəttə, layihənin davamının olub-olmayacağı ilk filmdən asılı idi. Təvazökarlıqdan uzaq da olsa, film uğurlu oldu və qərara alındı ki, davamı çəkilsin...

### JURNALİST OLMAQ İSTƏYİ

● **Keçmiş iş fəaliyyətləriniz maraqlı gəlir: Azneft, Daxili İşlər Nazirliyi, biznes fəaliyyəti, müxtəlif telekanallarla layihələr, nəhayət, “Qərib Azər” və “Oralar” verilişləri... Belə qənaətə gəldim ki, sadaladığım işlər içində televiziya sizin üçün ən yaxşı “istinad” nöqtəsi olub...**

● Jurnalist olmağı uşaqlıqdan istəyirdim. Xarici kanallardan reportajları, “Beynəlxalq panorama” verilişini maraqla izləyirdim. O vaxtdan arzum televiziya jurnalistikası ilə məşğul olmaq idi. Yazı-pozunu da sevirdim. Hələ 12 yaşım olanda “Pionerskiy pravda” qəzetində məqaləm dərc olunmuşdu. 1989-cu ildə “İzvestiya” qəzetində Gəncənin tarixi abidələri haqqında bir məqaləm də dərc olundu. Məqalə “Kirovabad” adının dəyişdirilib Gəncə adının qaytarılması ilə bağlı idi. Məqalə səs-küy doğurdu. O vaxt artıq Gəncədə çox populyar idim. Sonra məni Azərbaycan Televiziyasına - “Cənub sərhədlərinin keşiyində” adlı hərbi-vətənpərvərlik verilişinə aparıcı kimi dəvət etdilər. 20 Yanvar hadisələrinə qədər Azərbaycan generalları haqqında silsilə verilişlər hazırladıq. 90-cı ildə məlum səbəblərə görə veriliş bağlandı. 2003-cü ildə ANS kanalında “Qərib Azər” verilişi ilə yenidən tamaşaçıların görüşünə gəldim. Bu il həmin verilişin 20 yaşı oldu.

*“Səyahətlərim zamanı iki dəfə şok keçirmişəm. Yaponiyada müsbət, Hindistanda mənfi şok... Düzdür, sonradan Hindistan haqqında fikirlərim dəyişdi, ölkəni başqa cür görməyə, hətta sevməyə başladım.”*



### BLOGERLƏR BİR ÇƏTİR ALTINDA

● **Bir neçə il əvvəl Azərbaycan Turizm Blogerləri Assosiasiyasını yaratdınız. Bu qurumla bağlı qarşınıza qoyduğunuz məqsədləri həyata keçirə bilirsinizmi?**

● Məqsədimiz hansısa gəlir və ya imtiyazlar əldə etmək deyildi, səyahət blogerlərini bir çətir altına yığmaq idi. Yəni hamı bir-biri ilə təcrübəsini bölüşsün, yardımçı olsun, izləyicilərə daha dolğun məlumatlar verilsin, birgə layihələr həyata keçirilsin... Təşkilatı yaradanda pandemiya vaxtı idi, xaricə getmək mümkün deyildi. Biz də fürsətdən istifadə edib Azərbaycanın bölgələrinə səyahət edirdik. İndi hava sərhədləri açıqdır, artıq gediş-gəliş var. Bununla bərabər, çalışırıq ki, Azərbaycanın bölgələrini də unutmayaq. Sağ olsun Dövlət Turizm Agentliyi, bizə şəhərin mərkəzində məkan verdi. Azərbaycanda fəaliyyət göstərən hotellərlə müsbət əlaqələrimiz var, onların tanıtımını edirik. Çalışırıq ki, səyahət blogerlərinin sayı çox olsun.

● **Sosial platformalarda, xüsusən “Instagram”da səyahət blogerləri arasında qızğın bir rəqabət var. Səyyahla blogerin fərqi nədir?**

● Səyahətçi gəzir, başqa ölkələri görür və fotolarını yalnız ailə üzvlərinə və yaxınlarına göstərir, təəssüratlarını da onlarla bölüşür. Bloger isə təəssüratlarını izləyicilərlə bölüşür. Nə qədər izləyicisi çox olursa, o qədər də motivasıyası və reklam dəyəri artır. Çünki istənilən səyahət blogeri hansısa vəsaitlə səyahət etməlidir. O vəsaitlər reklam gəlirlərindən formalaşır.

● **Qeyd etdiniz ki, pandemiya vaxtı daha çox Azərbaycan boyunca səyahət etmisiniz. Bir müsahibənizdə demisiniz ki, hələ ölkəmizi yaxşı gəzməmisiniz. Bu istəyinizə daha çox xaricə səyahətləriniz mane olub?**

● Mənim əslim Qəbələdəndir. Uşaq vaxtı məni tətilə o bölgəyə göndərirdilər: Şamaxı, İsmayıllı, Qəbələni gəzirdim. Düzdür, Zaqatalada da, Balakəndə də olmuşam. Gəncə sevimli şəhərimdir, oraya tez-tez gedirəm. Amma cənub bölgəsində olmamışdım. Oraları çox xoşlayıram. İndi bu bölgəyə tez-tez getməyə başlamışam. Bununla belə, həqiqətən, Azərbaycanda elə bölgələr var ki, hələ səfər etməmişəm. Məsələn, Kəlbəcər mənim arzularımdan biridir. Şuşaya səfər etsəm də, hələ Laçında və işğaldan azad olan digər rayonlarda olmamışam.



Fotolar: Tapdıq Abdullayev / Global Media Group

### MÜSBƏT VƏ MƏNFİ “ŞOK”

● **Hansı xarici səfəriniz sizə “mədəniyyət şoku” yaşadıb?**

● Səyahətlərim zamanı iki dəfə şok keçirmişəm. Yaponiyada müsbət, Hindistanda mənfi şok... Düzdür, sonradan Hindistan haqqında fikirlərim dəyişdi, ölkəni başqa cür görməyə, hətta sevməyə başladım. Hindistana 15-20 il bundan əvvəl səyahət etmişdim. Mənə natəmiz, antisanitar təsir bağışlamışdı. Amma bir neçə il əvvəl yenidən səfər etdim, müqayisədə çox irəliləyiş var.

Yaponiyaya isə 2008-ci ildə səyahət etmişdim. 15 il keçib. Hələ onda dedim ki, bura 21-ci, 22-ci əsrin ölkəsidir. O vaxt smartfonlar yox idi, “Ericsson”, “Nokia” modelləri vardı. Məndə “Ericsson”un ən son modeli idi, amma orada işləmədi. Dedilər ki, bu sistem çoxdan köhnəlib.







### XİDMƏT SEKTORUNDAKI PROBLEM

● **Ölkəmizdə gediş, yoxsa gəliş turizmi daha çox inkişaf edib?**

● Ölkəyə gələn turistlərin sayı artıb. Bu, rəsmi statistikadır. Regionlarda yeni hotellər açılıb, heç biri də boş olmur. Eyni zamanda, gediş turizmi də çoxalıb. AZAL lizinqlə yeni təyyarələr alır, demək, ehtiyac var. Azərbaycana yeni aviaşirkətlər, “loukoster”lər gəlir. Pandemiyadan sonra böyük canlanma yaranıb. Hətta hava limanına gedəndə böyük sıxlıq müşahidə edirəm. Bunlar əlbəttə, sevindiricidir.

● **Turizmdə xidmət məsələsinə toxunaq. Daxili turizmdə hansı çatışmazlıqlar müşahidə edirsiniz?**

● Yerli turizmdə ən böyük problem xidmət sahəsindədir. Hotel biznesində, restoranların xidmət sektorunda problem var. Müştərilərə xidmətdə təcrübə çatışmır. Amma servisin zəif olması pis niyyətdən yox, təcrübəsizlikdən irəli gəlir. Məncə, bu qüsurlar da tədricən təlimlərlə aradan qalxacaq, buna görə optimistəm.

### TƏQAÜDÇÜLƏR ÜÇÜN SƏYAHƏT PLANI

● **Özümə həmişə maraqlı olan bu sualın cavabını sizdən də istəyirəm: niyə bəzi adamlar səyahət etmirlər?**

● Maraqlı sualdır... Və ya şablon yerlərə səyahət edirlər? Biz nədənsə səyahət üçün eyni ölkələrə gedirik. Mən xaricdə adamlarla söhbət edəndə “Bu il filan ölkəyə getmişəm, gələn il filan ölkəni planlaşdırıram” kimi fikirlərini səsləndirirlər. Onlar səyahətlərini 4-5 illiyə planlayırlar. Biz isə yeni ilə və ya Novruz bayramına bir həftə qalmış “Tətil gəldi, hara gedək?” - deyə düşünürük. Sonra da gileylənirik ki, qiymətlər bahadır. Bu qaydanı bilmək lazımdır ki, aviaşirkətlərdən bileti qabaqcadan alanda ucuz olur. Eynilə hotelləri də öncədən sifariş etmək lazımdır. Bizim Assosiasiyanın üzvləri turlar təşkil edirlər. Onlar da deyirlər ki, bir çox insanların imkanları var, amma sadəcə, getməyə qorxurlar: kimisi dil bilmir, kimisi nabələd olmaqdan, azmaqdan ehtiyat edir. Yanlarında bələdçi olanda isə arxayın olurlar. Bu baxımdan, bizim blogerlərin də üzərinə müəyyən vəzifələr düşür.

## DÜNYADA TURİZM QİYMƏTLƏRİ SIÇRAYIŞLA ARTIR



● **Dünya ölkələrində yaşlılar çox səyahət edirlər. Bizdə, məsələn, təqaüdçülərin səyahət etməsi normaya çevrilməyib. Sizcə, bu, təkcə maddi vəziyyətlə bağlıdır?**

● Mənim biznes planlarımda belə turlar təşkil etmək var. Rəhmətlik anam Parisə səyahət etmək istəyirdi. Biz ona belə bir tur tapa bilmədik. Sonra anamı rəfiqəsi ilə göndərdik. Bizim o yaşda səyahət edən insanlarımız olmur. Yaşlı insanların təşkilati imkanları yoxdur. Çox adamlar var ki, valideynlərini səyahətə göndərmək istəyirlər, amma belə qruplar tapa bilmirlər. Məsələ həm də təqaüdçülərin təqaüdünün yüksək olmaması ilə bağlıdır. Digər tərəfdən, xaricdə ata-ana uşağı böyüdür, sonra özü üçün yaşayır. Bizdə isə ata-ana uşağı böyüdəndən sonra nəvələr üçün yaşamağa başlayır, özünə vaxt qalmır.

● **Yeri gəlmişkən, xaricə səfər vizası almaq əsl problemə çevrilib. Görüş yerlərinin satılması ilə bağlı narazılıqlar səslənir...**

● Bu problem var... Bəzi səfirliklərin işçiləri öz vəzifələrindən sui-istifadə edərək vizanın alınmasında “köməklik” göstərirdilər. İnsanlar da haqlı olaraq narazılıq edirdilər. Elə səfirliklər var ki, şəffaf işləyir, viza prosedurunu beynəlxalq vasitəçi şirkətlər həyata keçirirlər. Elələri də var ki, başdansovdu iş görürlər. Digər tərəfdən, özümüzdə də təqsir var. Səyahət etmək istəyən insan viza haqqında bir həftə əvvəl yox, 3-4 və ya altı ay qabaq düşünməlidir.

● **101-ci ölkəyə səyahət etdiyinizi qeyd etmişdiniz. Sirr deyilsə, növbədə hansı ölkədir?**

● İstəyim xəritədə mövcud olan bütün ölkələrə səyahət etməkdir. Son vaxtlar dünyada turizm qiymətlərinin sıçrayışı baş verib. Hotellərin, uçuşların qiymətləri bahalaşıb. Ona görə qismət və büdcə hara imkan versə, ora da gedərəm.

● **Mark Tvenin belə bir fikri var: “Ölüm ayağında az sevdiyimizə, həyatda az səyahət etdiyimizə peşman olacağıq”. Bu kontekstdə təcrübənizdən istifadə edərək insanlara nə deyərdiniz?**

● Səyahətə həvəsi olan insan məvacibindən asılı olmayaraq ildə bir dəfə, uzağa da olmasa yaxına səyahət edə bilər. Sadəcə, qənaət etməklə, pul toplamaqla, təyyarə biletləri ilə bağlı endirim aksiyalarını izləməklə bunu etmək mümkündür. Mən arzu edirəm ki, insanlar səyahət etsinlər!

# 2024-CÜ İLİN POPULYAR SƏYAHƏT SEÇİMLƏRİ

**Turizm şirkətlərinin təmsilçiləri səyahətlər üçün yaxşı imkanların yarandığı qənaətindədirlər. Türkiyə şəhərləri azərbaycanlı turistlərin seçimində birinci yerdə olmaqda davam edir.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




Turistlər səyahət planlaşdırarkən adətən tətil seçimlərindən asılı olaraq istiqamət müəyyənləşdirirlər. Bu halda təhlükəsizlik mühüm parametr hesab olunur. Yaxşı səyahət üçün əsas meyarlardan biri getdiyin ölkədən sağlam və təbii ki, yalnız müsbət emosiyalarla qayıtmaqdır. Səyahət üçün ölkə seçiminə yanlış yanaşma çoxdan gözlənilən tətili məhv edə bilər. Televiziya xəbər lentlərində tez-tez sosial iğtişaşlar, terror və təbii fəlakətlərlə bağlı xəbərlər, əslində, insanları xəbərdar edir. Xaricə istirahətə gedənlər, çətin ki, belə hadisələrin iştirakçısı olmaq istəsinlər. Bu baxımdan, bir neçə vacib meyarı qiymətləndirərək səyahət üçün düzgün ölkəni seçmək mütləqdir. Hər bir ölkənin də öz xüsusiyyətləri var.

### TƏHLÜKƏLİ VƏ TƏHLÜKƏSİZ ÖLKƏLƏR QRUPU VAR

Hər il Dünya İqtisadi Forumunun ekspertləri ziyarət üçün ən təhlükəsiz olan ölkələri müəyyənləşdirirlər. Ancaq bu cür reytinqlər çox fərqli ola bilər: əsasən, kriminal vəziyyət gərgin olan, silahlı münaqişələrin baş verdiyi, epidemiya və digər fövqəladə hallar riskinin yüksək olduğu bölgələrə səyahət tövsiyə olunmur. Həmçinin, tibbi xidmətin səviyyəsi, yerli nəqliyyat qəzaları və küçə cinayətləri kimi indekslər də nəzərə alınır.

Hazırda çətin siyasi vəziyyətlə əlaqədar dünyanın müxtəlif yerlərində turistlərin həyatı üçün artan müxtəlif risklər mövcuddur.

2024-cü ildə səyahət üçün ən riskli və təhlükəsiz ölkələrin bu günlərdə açıqlanan siyahısı isə səyahətçilərə səfər edəcəkləri ölkələri bir daha dərindən araşdırmağa, tətil üçün kortəbii qərarlar qəbul etməməyə əsas verir.



Göydəniz Qəhrəmanov

Foto: Rüfət Mikayılov-Global Media Group

Belə ki, “İnternational SOS” şirkətinin təhlükəsizlik, iqlim dəyişikliyi, sağlamlıq və sabitlik baxımından qiymətləndirdiyi vəziyyət ölkələri təhlükəli və təhlükəsiz kateqoriyalarına bölüb. Məlumata görə, 2024-cü ildə səyahət üçün ən təhlükəsiz ölkələr Danimarka, İsveçrə, Norveç, İslandiya və Lüksemburqdur. Cənubi Sudan, Somali, Əfqanıstan, Liviya və Suriyaya səyahət etməksə tövsiyə olunmur...

Bəs təhlükəsizliyimizə və xoş səyahət təcrübələrinə əmin olmaq üçün səyahət edəcəyimiz ölkəni necə seçməliyik?

### “MÜŞTƏRİLƏRİN QƏRARLARINA MÜDAXİLƏ EDƏ BİLMİRİK”

Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının sədri Göydəniz Qəhrəmanov bildirir ki, əslində, bir çox dövlətlərin xarici işlər nazirlikləri hansı ölkələrə getməyin təhlükəli olduğunu öz vətəndaşlarına bildirirlər: “Aydın məsələdir ki, müharibə olan ölkələr tövsiyə olunmur. Bizdə də rəsmi orqanlar öz vətəndaşlarımız üçün belə məlumatı paylaşırlar. Biz də assosiasiya olaraq öz xəttimizlə və üzv turizm şirkətləri vasitəsilə müştərilərə bu cür ölkələrə səyahət etməyi tövsiyə etmirik. Bununla belə, yenə də seçim müştərilərindir. Biz onların qərarlarına tam olaraq müdaxilə edə bilmirik. Tövsiyələr isə verilir və mediada, sosial mediada bu barədə paylaşılır”.



Mirsəməd Cəfərli

## İLK SIRALARDA AVROPA DÖVLƏTLƏRİDİR

Tanınmış teleaparıcı, səyahət blogeri Mirsəməd Cəfərlinin sözlərinə görə, açıqlanan təhlükəsiz ölkələr siyahısında yer almayan ölkələrə də getmək mümkündür: “Siyahıda ilk sıralarda Avropa dövlətləri qeyd edilib. Amma cənub-şərqi Asiyada, yaxın Şərqdə də kifayət qədər sakit, kriminaldan uzaq, təhlükəsizliyi tam təmin olunmuş ölkələr var. Məsələn, turistlər Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Oman kimi ölkələrə səyahət edirlər. Əlbəttə, səyahət zamanı əsas meyar kimi təhlükəsizlik indeksi nəzərə alınmalıdır. Məsələn, elə ölkə var ki, orada dövlət çevrilişləri baş verib və vaxtilə orda turizmin ilk işartıları və infrastrukturu olsa da, hazırda heç bir şərait yoxdur. Bu il səyahət etdiyim Afrika ölkəsində vaxtilə turizm üçün şərait yaradıldığını, amma dəyişən ictimai-siyasi vəziyyətin öz şərtlərini diktə etdiyinin və turistlərin artıq ora getmədiyinin canlı şahidi oldum”. Bloger hesab edir ki, 2024-cü ildə səyahət üçün yaxşı imkanlar var: “Bir sıra aviaşirkətlər artıq Azərbaycanda işləməyə başlayıb. Əbu-Dabiyə, Budapeştə və Romaya münasib qiymətə uçuşlar var ki, həmin ölkələrdən Yaxın Şərqə, Asiya və Afrika ölkələrinə tranzit kimi də istifadə etmək olar. İtaliya çox maraqlı marşrutdur. Viza alınmasında problemlər olsa da, təyyarələr boş uçmur. İnsanlar İtaliyaya, oradan başqa yerlərə uça bilirlər”. Səyahətçi hesab edir ki, səyahət xəritəsini genişləndirmək üçün fərqli ölkələr seçmək lazımdır: “İnsan bir ölkəni gördüsə, ikinci dəfə getməyə lüzum bilmir. Mən bu prinsiplə səyahət edirəm. Çalışıram ki, yeni ölkələrə səyahət edim, yeni yerlər görüm. Xüsusən rahat marşrutlar olan ölkələrə üstünlük verirəm”.

## RUSİYAYA DA SƏYAHƏT ÜÇÜN MÜRACİƏTLƏR AZALIB

Turizmçi Sürəyyə Axundova bildirir ki, bizim turistlər, əsasən, Avropa ölkələrinə - İspaniya, İtaliya, Fransa, Çexiya, Avstriyaya, Asiya ölkələrindən isə Tailand, İndoneziya, Şri-Lankaya üstünlük verirlər. 2024-cü il üçün də seçimlər eynidir. Türkiyənin şəhərləri isə insanlarımızın seçimləri arasında həmişəki kimi birinci yerdədir”. S.Axundovanın sözlərinə görə, artıq riskli ölkələr siyahısında olan Rusiyaya da səyahət üçün müraciətlər azalıb: “Risk qrupuna daxil olan ölkələrə adətən gənclər can atırlar. Biz isə müştərilərimizə risk qrupuna daxil olan ölkələr haqqında həmişə məlumat veririk. Onlar özləri də səyahət etmək istədikləri ölkələr haqqında məlumatları əvvəlcədən araşdırsalar, yaxşıdır”.



Sürəyyə Axundova

# ARZULARI ÇİN EDƏN ƏJDAHA İLİ




Çin mifologiyasında əjdahalar küləyi, yağışı idarə edir, havaya və məhsullara təsir edir, dünyaya firavanlıq gətirir. O, çox güclü talisman hesab olunur. Əjdaha ağıllı və qətiyyətli olanların üzünə güləcək.



XANIM AYDIN

Üzümüzə gələn 2024-cü il Şərq təqviminə görə Əjdaha ilidir. Özü də elə-belə yox, yaşıl Əjdaha ili. Şərq inancına görə, Əjdaha ili insanların öz arzularını və planlarını həyata keçirə biləcəyi bir ildir.

Əjdaha gücün, müdrikliyin və ədalətin simvoludur. Yorulmadan çalışanları irəli aparır. Bu insanlar yolda çətinliklərlə qarşılaşsalar belə, məqsədlərinə çata biləcəklər. Əjdaha ağıllı və qətiyyətli olanların üzünə güləcək.

### 12 BÜRC ARASINDA YEGANƏ MİFİK VARLIQ

Çin mifologiyasında əjdahalar küləyi, yağışı idarə edir, havaya və məhsullara təsir edir, həmçinin dünyaya firavanlıq gətirir. O, çox güclü talisman hesab olunur. Bu il həm də taxta Əjdaha ilidir. Əjdahanın həm yaşıl, həm taxta olması onu daha da uğurlu edir. Çin ənənəsində ağac böyümənin, uğurun və inkişafın rəmzidir. Taxta əjdahanın enerjisi ənənəvi olaraq yaşıl rəngdədir. Əjdaha 12 bürc arasında yeganə mifik varlıqdır. Bu səbəbdən onun ən enerjili və güclü olduğuna inanılır. Çində qızıl, gümüş və boz-ağ rənglərin əjdahaya uğur gətirdiyinə inanırlar. Çin ulduz falına görə, 2024-cü ili məhz bu çalarlarda qarşılamaq lazımdır. İlin simvolu yaşıl taxta əjdaha olsa da, yaşıl rəng Əjdaha ilində doğulanlar üçün uğursuz rəng sayılır.

### ƏJDAHA MÜHARİBƏDƏN UZAQDIR

Astroloq Səbuhi Rəhimli deyir ki, Əjdaha ili sülh ilidir: "Əjdaha ili Çin təqvimi ilə fevralın 10-da başlayır və 2025-ci il yanvarın 10-da bitəcək. Yanvarın 1-i isə Miladi təqvimi təzələnir. Əjdaha ili özündən əvvəl iki ilin "tullantılarını süpürməklə" məşğuldur. Tarixən bu, belə olub. Hər ilin öz xüsusiyyətləri var. Əjdaha ilində indiyə qədər böyük müharibələr müşahidə olunmayıb. Olsa da, qısamüddətli olub. Çünki əjdaha müharibədən uzaqdır. Onun üçün dava-dalaş, qırğınlar xarakterik deyil. Daha çox sülh müqavilələri bağlanan, barışıq olan, həmçinin bəzi münaqişələrin bitdiyi ildir. Yunan astrologiyasına əsasən, əjdaha ilində başlayan müharibələr elə həmin ildə də bitir. Əjdaha ilində - 1988-ci ildə yaranan Qarabağ münaqişəsinin bu il, 2024-cü ildə sülh müqaviləsi ilə yekunlaşacağı gözlənilir. Ürəkaçan cəhət həm də budur ki, bu il yoluxucu xəstəliklər, pandemiya gözlənilmir".



## TÜRKİYƏDƏ YENİ ZƏLZƏLƏLƏR OLA BİLƏR

Dünyada baş verəcək hadisələrin proqnozunu Zirəddin bəy Türkiyənin timsalında açıqlayıb: "Payız və qış aylarında Türkiyədə yeni zəlzələlər ola bilər, ancaq bu, böyük dağıntılara səbəb olmayacaq. Bu zəlzələlər Türkiyə ilə eyni coğrafiyadakı ölkələrə də aiddir. Şərqdə yeni müharibə qığılcımı müşahidə olunacaq. Mən demişdim ki, 2023-cü ildə Rusiya və Ukrayna hərbi qarşıdurmasına möhür vurulacaq. Belə də oldu. Qərb artıq Ukraynaya öz maddi və hərbi yardımını dayandıracağını elan edib. Bu da o deməkdir ki, artıq Qərb Ukraynada Rusiya ilə savaşdan imtina edir. 2024-cü il isə hərbi əməliyyatlar ya qismən, ya tam şəkildə dayanmalıdır. Bu müharibə Rusiyanın qələbəsi ilə nəticələnəcək. Fələstin və İsrail gərginliyi ikincinin qələbəsilə bitəcək".


Zirəddin Rzayev

## PLANLAŞDIRILAN LAYİHƏLƏRİN HƏYATA KEÇDİYİ İL

Astroloq deyir ki, Əjdaha ili iqtisadiyyatın, mədəniyyətin inkişafı ilidir: "Bundan başqa, il insanların həyatında kollektiv yox, fərdi yaradıcılıq istiqamətində önəmli rol oynayacaq. Həmçinin daha çox özündən əvvəlki illərdə reallaşmayan, dondurulan planların, layihələrin həyata keçdiyi ildir". S.Rəhimlinin sözlərinə görə, bu ildə zəlzələlər gözlənilən olur: "Yer kürəsində indiyədək olan üç böyük zəlzələdən ikisi Əjdaha ilində olub. Amma bu o demək deyil ki, bu il də mütləq zəlzələ olacaq".


Səbuhi Rəhimli

Astroloq bu il səhhətimizdə yarana biləcək problemlərdən də danışdı: "Bu il sinir sistemi xəstəlikləri, təzyiq, gözlərdə problemlərin yaranması ilidir. Öncədən tədbirlər görmək, müayinə və müalicə etdirmək yaxşı olar. Bundan başqa, bu ildə insanlar gərək münasibətlərində də diqqətli olsunlar. Sözlərinə, danışıqlarına fikir versinlər. Yerində deyilməyən sözdən münaqişələr yarana bilər".

### SU İLƏ BAĞLI BÖYÜK FƏLAKƏTLƏR OLACAQ

Ekstrasens Zirəddin Rzayev də 2024-ci il dünya və ölkəmiz üçün proqnozlarını bizimlə bölüşüb: "Azərbaycan-Ermənistan münasibətlərində aprel-may, avqust-sentyabr ayları kiçik gərginlik ola bilər. Ancaq bu, böyük və xoşagəlməz hadisələrə səbəb olmayacaq. 2021-ci ildə dünyada baş verəcək daşqınlar barədə proqnoz vermişdim. O, hələ də davam edir. 2024-də də daşqınlar gözlənilir. Ümumiyyətlə, dünyada su ilə bağlı böyük fəlakətlər olacaq. Azərbaycanda yaz-yay ayları yüngül yeraltı təkanlar qeydə alına bilər. Amma dağıdıcı və böyük fəlakətlərin olması gözlənilmir."

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - Azad Əliyev
Müxbirlər – Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı
Müəlliflər – Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov
Korrektor – Vüsal Əliyev

Texniki şöbə
Kreativ direktor – Murad Arbay
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 3503
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

BU SAHƏDƏ QANUNVERİCİLİKDƏ DƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ PLANLAŞDIRILIR

# YAŞIL ENERJİYƏ KEÇİD AKTUALLAŞIR



Enerji keçidi mərhələli və paralel şəkildə olmalıdır. Bunun üçün ənənəvi enerji mənbələrinin inkişafına xüsusi diqqət yetirilməli, bu sahəyə qabaqcıl azkarbonlu texnologiyaların tətbiqi nəzərdə tutulmalıdır. Paralel olaraq, bərpa olunan enerji mənbələrinin inkişafına xüsusi diqqət edilməlidir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Prezident İlham Əliyev Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı sərəncam imzalayıb. Sərəncamda qeyd olunub ki, Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Yeri gəlmişkən, İqtisadiyyat naziri Mikayıl Cabbarov Dubayda keçirilən COP 28 konfransı çərçivəsində G77 və Çin liderlərinin sammitində çıxışı zamanı Azərbaycanın qaz emissiyalarını 2050-ci ilə qədər 40 faiz azaltmaq hədəflərindən bəhs edib. Bu hədəfə çatmaq nə dərəcədə realdır və onun ölkəmiz üçün hansı nəticələri olacaq?

**RUSİYA-UKRAYNA MÜHARİBƏSİNDƏN SONRA AKTUALLAŞAN PROBLEM**

Enerji məsələləri üzrə ekspert Zəfər Vəliyev bildirdi ki, bu məsələ uzun zamandır müzakirə edilirdi. Lakin Rusiya-Ukrayna müharibəsindən sonra daha da aktuallaşıb: "Qaz emissiyaları dedikdə söhbət boru, kəmər vasitəsilə nəql edilən, metan tərkibli qazdan gedir. Hədəf neft və qaz yataqlarında hasilat prosesində metan tərkibli qazın atmosferə atılmasının qarşısını almaq, eyni zamanda qapalı boru kəməri vasitəsilə nəql prosesində, həmçinin istehsal və istehlak zamanı metan emissiyalarının miqdarını aşağı salmaqdır. Yaşıl enerjiyə keçidlə bağlı işlər görülürdü. Amma 2022-ci ildə Rusiyanın Ukraynaya hərbi müdaxiləsindən sonra qlobal enerji axın xətlərində, satış və istehlak mərkəzləri, həmçinin ixrac marşrutlarında dəyişikliklər baş verib. Rusiyanın beynəlxalq ixrac qabiliyyətinə qoyulan məhdudiyyətlər Avropa bazarlarında dərin enerji böhranının yaranmasına səbəb olub. Sakit okean bazarlarında, eyni zamanda ABŞ-də problemlər müşahidə edilib. Bu məsələlər prosesləri daha da sürətləndirib".

**MƏQSƏD "YAŞIL" İQTİSADİYYATI İNKİŞAF ETDİRMƏKDİR**

Z.Vəliyev dedi ki, Azərbaycanın qarşısında prioritet hədəflər mövcuddur: "Ənənəvi enerji mənbələrinin inkişafına xüsusi diqqət yetirilir, azkarbonlu texnologiyaların tətbiqi, metan emissiyalarının minimuma endirilməsi, istehsal və hasilat proseslərində karbon dioksid emissiyalarının atmosferə atılmasının azaldılması, enerji səmərəliliyinin illik orta axınını bir neçə dəfə artırmaq istiqamətində addımlar atılır. Eyni zamanda, bir sıra şirkətlərlə bərpa olunan enerji mənbələrinin inkişafına da diqqət ayrılır. Azərbaycan regionda yaşıl enerjiyə keçiddə öndə olan dövlətlərdəndir. Həm Şərqi Zəngəzur, həm Naxçıvan, həm Bakı-Abşeron iqtisadi rayonlarında yaşıl enerjinin inkişafına nail olmaqla, ənənəvi enerji mənbələrindən artıq qalan həcmləri beynəlxalq bazarlara yönəldəcəyik. Məqsədlərimiz eyni zamanda mərhələli şəkildə "yaşıl" iqtisadiyyatı inkişaf etdirmək, "yaşıl" investisiyaları ölkəyə cəlb etmək, bu sahədə aparıcı dövlətlərdən birinə çevrilmək, əldə olunan yaşıl enerji həcmlərinin bir hissəsini Avropa, Qara dəniz hövzəsi ölkələrinə ixrac etməkdir".

## NEFT MƏHSULLARINA, TƏBİİ QAZA TƏLƏBAT ARTACAQ



Zəfər Vəliyev

Ekspertin fikrincə, bu proses zamanı balansı qoruyub saxlamaq mütləqdir: "Amma yaşıl enerjiyə keçirik deyə, bu o demək deyil ki, Azərbaycan karbohidrogen ehtiyatlarından istifadə etməyəcək. Növbəti illərdə bu yanacağa tələbat indiki səviyyədən bir neçə dəfə artıq olacaq. 2024-cü ildə dünyanın neft məhsullarına, təbii qaza tələbatı daha da artacaq. Bu proses 2030-2040-cı ilə kimi davam edəcək. Hesab edirəm ki, enerji keçidi mərhələli və paralel şəkildə olmalıdır. Həm ənənəvi enerji mənbələrinin inkişafına xüsusi diqqət yetirilməli, bu sahəyə qabaqcıl azkarbonlu texnologiyaların tətbiqi nəzərdə tutulmalı, paralel olaraq bərpa olunan enerji mənbələrinin inkişafına xüsusi diqqət edilməlidir".

## DAHA ÇOX İNKİŞAF ETMİŞ ÖLKƏLƏR FƏALDIRLAR



Emin Qəribli

İqtisadçı Emin Qəribli bildirdi ki, iqlim şərtlərinin pozulması iqtisadiyyata çox ciddi ziyan vurur: "İnkişafda olan ölkələrə baxsaq görərik ki, sənaye kompleksləri inkişaf etdikcə bu, iqlimə də təsir göstərir. O da zəncirvari şəkildə bütün sahələri əhatə edir. Məlum səbəbdən bu problemin həlli bir ölkənin öhdəsində olmamalıdır. BMT-nin sənədlərində hər bir ölkənin qarşısına öhdəlik qoyulub. Amma bu sahədə daha çox inkişaf etmiş ölkələr fəaldırlar. Kiçik sənaye müəssisələri daha çox inkişafda olan ölkələrdə yerləşdiyinə görə, onlarda havanın çirklənməsi problemi daha çoxdur. Havanın təmizlənməsi üçün olan layihələr də böyük maliyyə tələb edir deyə, onu həyata keçirmək elə də asan deyil".

Ekspertin sözlərinə görə, Azərbaycanda bu məsələ ilə bağlı xeyli işlər görülür: "Ətraf mühitin çirklənməsinin qarşısının alınması üçün müvafiq işlər həyata keçirilir. Yaşıl enerjinin hasilatına dair müqavilələr də imzalanıb. Birləşmiş Ərəb Əmirliyi ilə üç müqaviləmiz mövcuddur. BMT-nin dayanıqlı iqtisadi inkişafa dair planına görə də müvafiq dövlət proqramı qəbul olunub. Bu proqrama görə müəyyən məqsədlər qoyulub və onlar həyata keçirilir. Enerji ixrac edən ölkəyik və ənənəvi enerjidən daha çox istifadə edirik, deməli, tullantılarımız da çoxdur. Biz də bunu digər enerji növləri ilə əvəzləyirik. Məqsəd qoyulub ki, havanı çirkləndirməyən vasitələrdən istifadə edilsin. Kənd təsərrüfatında və digər sahələrdə müəyyən normativ aktların dəyişdirilməsi, havanı çirkləndirməyən avadanlıqlardan istifadə prosesləri gedir. Qanunvericilikdə də dəyişikliklər olacaq".

"MƏN JURNALİST OLANA QƏDƏR AZ QALA ON YERDƏ İŞLƏDİM"




HAZIRLADI

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

# "ATAM İSTƏYİRDİ RİYAZİYYATÇI OLUM"

## **Elçin Şıxlı:** "Elektron media daha çevikdir, xəbəri daha tez ötürür. Ancaq oxuduğun materialın içi boşdursa və məğzi yoxdursa, mənası da yoxdur".

**Fotolar:** Rüfət Mikayılov / Global Media Group

"Məktəbdə" Yeni il ərəfəsində Mərdəkan qəsəbəsindəki 183 nömrəli tam orta məktəbin şagird və müəllim kollektivini bir yerə topladı. Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə "Kaspi" qəzetinin birgə reallaşdırdığı layihənin növbəti qonağı Azərbaycan Jurnalistlər Birliyinin sədri, ayna.az saytının təsisçisi Elçin Şıxlı idi.

### "FİKİRLƏRİNİZİ İFADƏ ETMƏYİ ÖYRƏNİN"

Elçin Şıxlı görüşə jurnalist fəaliyyətindən danışmaqla başladı: "Jurnalistika cəmiyyətdə mövcud olan problemləri ayırd edə və qabarda bilir. Amma problemləri həll etmir, çünki vəzifəsi bu deyil. Sadəcə, hakimiyyətin digər üç qolunu məlumatlandırır. Jurnalistikanın əsas prinsiplərindən biri alınan məlumatı iki və ya üç mənbədən təsdiq etməkdir. Mən 20-25 il əvvəl Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində dərs demişəm. "Kim jurnalist olmaq istəyir?" - deyə tələbələrimdən soruşanda yalnız 2-3 nəfər əl qaldırırdı. Qalanları fakültəyə test sistemi ilə təsadüfən daxil olduqlarını deyirdilər. Mən də həmin 2-3 nəfərə həmişə məsləhət görürdüm ki, əgər jurnalist olacaqsınızsa, ilk növbədə fikirlərinizi ifadə etməyi öyrənin. Siz də bu məqamı unutmayın - həm orta, həm də ali məktəbdə".

Qonaq orta məktəb illərini xatırladı: "Orta təhsilimi 190 saylı orta məktəbdə almışam. İlk müəllimim Hökümə Qurbanovanı bütün müəllimlərimdən çox istəmişəm. Sinifdə 56 şagird vardı. Ən çox oğlan uşağı da bizim sinifdə idi. Həranin bir xarakterdə olmasına baxmayaraq, sinfimiz ən yaxşılardan idi. Hökümə müəllimə bütün şagirdlərlə dil tapmağı bacarırdı. O, mənə bu peşəni daha dərindən sevdirdi. Mən həmişə müəllim peşəsinə hörmətlə yanaşıram. Siz də müəllimlərinizi sevin və hörmət edin". E.Şıxlı kiril əlifbasından latın əlifbasına keçidin bir sıra problemlər yaratdığını bildirdi: "Bu dəyişiklik insanların oxumaq vərdişinə təsir etdi. Amma indi sizin üçün bu problem yoxdur. Bütün vəsaitlər latın qrafikası ilə çap olunur. Mütaliə isə zəifləyib".

### "MƏNDƏN RİYAZİYYATÇI ALINMADI"

Şagirdlərdən birinin "Atanız yazıçı olmasaydı, siz qələm adamı olardınızmı?" - deyə sorğusuna qonaq "Atam mənim jurnalist olmağımı istəmirdi. İstəyirdi riyaziyyatçı olum. Məndən riyaziyyatçı alınmadı", - deyə cavab verdi: "Beynin quruluşu başqa şeydir. Mən jurnalist olana qədər az qala on yerdə işlədim. Əsas ixtisasım ingilis-alman dili müəllimliyi idi. Tərcüməçilik də etmişəm. Əsas məsələ o idi ki, 09.00-dan 18.00-a işdə oturmaqdan həzz almamışam. Lazım gələndə 15-16 saat işləmişik. Sərbəst iş rejimi yaradıcılıq istəyimi tamamlayıb". İxtisas seçimindən danışan qonaq bildirdi ki, o zaman xarici dil bilən azərbaycanlılar az idi, internet də yox idi: "Xarici dil bilmədən xaricdə gedib işləmək də olmurdu. Orta məktəbdə bizə fars dili keçirdilər. Dünyaya çıxış üçün ərəb-fars dili bəs etmirdi. Ona görə də ingilis dilini seçdim. İnstituta daxil olanda məqsəd o idi ki, işimə kömək olsun. Alman dilini də öyrəndim".

> "O vaxt mətbuata münasibət çox ciddi idi. Bir hərf səhvinə görə adamı işdən çıxarırdılar."





### QƏZET - KÜBARLIQ ƏLAMƏTİ KİMİ

"Əvvəl qəzet-jurnal oxumağa tələbat daha çox idi, yoxsa indi?" - deyə şagirdlərdən biri maraqlandı: "O vaxt informasiya almağa başqa imkanlar yox idi. Ona görə hamı informasiyanı qəzetdən və TV-dən alırdı. Mətbuata münasibət də çox ciddi idi. Bir hərf səhvinə görə adamı işdən çıxarırdılar. İndi isə mətbuat əvvəlki sanbalını itirib: nə tənqid, nə həqiqət var, nə də insanı düşündürən yazılar... 2014-cü ilə qədər mən "Ayna" qəzetini buraxdım. Rus və Azərbaycan dilində iki qəzet çıxırdı. 150 işçimiz vardı. İndi saytda beş işçi var. 150 nəfərin gördüyü iş hara, beş nəfərin gördüyü iş hara? Bu, mənim üçün deqradasiyadır. Əvvəllər hamı qəzet oxuyurdu. İndi isə qəzet köhnə platforma sayılır. Hansınızdan "Qəzet oxuyursunuz?"- deyə soruşsam, "yox" deyəcəksiniz. Amma yeni texnologiyalar nə qədər inkişaf etsə də, qərb ölkələrində oxumaq yaddan çıxmayıb. Hətta bir çox mədəni ölkələrdə qəzet kübarlıq əlaməti sayılır".



Elçin Şıxlı

"Bəs elektron medianı necə dəyərləndirirsiniz?" soruşan məktəbliyə cavabında E.Şıxlı "Elektron media informasiyanı sürətli ötürmə vasitəsidir" dedi: "Elektron media daha çevikdir, xəbəri daha tez ötürür. Ancaq oxuduğun materialın içi boşdursa və məğzi yoxdursa, mənası da yoxdur. Konstitusiyamıza görə hər kəsin informasiya almaq və yaymaq hüququ var. Ənənəvi mediada informasiya yanlışdırsa, mən məsuliyyət daşıyıram, sosial mediada isə buna görə heç kim məsuliyyət daşımır. Daha bir fərq də odur ki, ənənəvi mediada yazılanlar qalır, arxivlərdə, kitabxanalarda saxlanır. Elektron platformalarda isə arxivlər pozula bilər".

### BƏLKƏ BEŞ İLDƏN SONRA...

"44 günlük Vətən müharibəsindəki şanlı Zəfərimizdən sonra yazıçı və şairlərimiz bir sıra əsərlər yazdılar. Onlardan hansını oxumusunuz?" - deyə auditoriyadan ünvanlanan suala qonaq "Məni qane edən bir əsərə rast gəlməmişəm", - deyə cavab verdi: "Fikrimcə, irimiqyaslı siyasi hadisələrdən, xüsusən müharibələrdən yazmaq üçün gərək həmin hadisələrin ya iştirakçısı, ya da yaxından şahidi olasan. Biz bu hadisələrin mahiyyətini 10-15 ildən sonra başa düşəcəyik. Atamın "Cəbhə gündəlikləri" adlı əsəri var. O, bu əsəri müharibədən dörd il keçəndən sonra yazmışdı. Bizdə də təxminən beş ildən sonra nəsə yarana bilər".

Sonda E.Şıxlı şagirdlərə tövsiyələrini də verdi: "Tövsiyə edirəm ki, inkişaf etmək, yeni dünya ilə ayaqlaşmaq, özünüzə daha yaxşı vətən qurmaq üçün ömür boyu oxuyub öyrənin".

# SOCAR-IN MÜŞAHİDƏ ŞURASININ İCLASI KEÇİRİLİB

**Şirkətin 2023-cü ilin ilk 9 ayı üzrə fəaliyyət nəticələri ətraflı müzakirə edilib. SOCAR-ın dekarbonizasiya hədəflərinə çatması məqsədilə "SOCAR Green" MMC şirkətinin təsis edilməsi təsdiq edilib.**

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Müşahidə Şurasının iclası keçirilib. "Report"un SOCAR-a istinadən verdiyi məlumata görə, iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarovun sədrliyi ilə keçirilən iclasda öncə şirkətin 2023-cü ilin ilk 9 ayı üzrə fəaliyyət nəticələri ətraflı müzakirə edilib.



### GƏLƏN İLİN BÜDCƏ LAYİHƏSİ MÜZAKİRƏ EDİLİB

Hesabat dövründə neft və qaz yataqlarının işlənməsi üzrə görülən işlər, hasilat göstəriciləri, bərpaolunan enerji mənbələrinin inkişaf etdirilməsi, dekarbonizasiya istiqamətində atılan addımlar barədə məlumat verilib. Eyni zamanda, cari ilin ilk 9 aylıq nəticələri əsasında korporativ Əsas Səmərəlilik Göstəriciləri (ƏSG) üzrə hədəflərin icra vəziyyəti nəzərdən keçirilib, 2024-cü il üçün büdcə layihəsi müzakirə edilib.

### "SOCAR GREEN" MMC TƏSİS EDİLDİ

Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Prezidentinin 25 dekabr 2023-cü il tarixli Sərəncamından irəli gələn tapşırıqlar çərçivəsində ölkədə bərpaolunan enerji mənbələrinin inkişafı, həmçinin SOCAR-ın dekarbonizasiya hədəflərinə çatması məqsədilə "SOCAR Green" MMC şirkətinin təsis edilməsi təsdiq edilib.

Müşahidə Şurasının iclasında, habelə "Yeni Əməliyyat Modeli"nin icra statusuna dair təqdimat edilib. Qarşıya qoyulan strateji məqsədlərə nail olmaq məqsədilə tətbiq olunan əməliyyat modelinin qısa müddət ərzində SOCAR-da korporativ idarəetmə proseslərinin təkmilləşdirilməsi, biznesin dayanıqlılığı və korporativ mədəniyyətin növbəti inkişaf mərhələsinə çatdırılması işlərinə mühüm töhfə verdiyi bildirilib.

İclasda gündəliyə daxil olan digər məsələlər ətrafında fikir mübadilələri aparılıb, müvafiq tapşırıqlar verilib.

# 2024-cü ildə ÜDM 2,4 % artacaq

Gələn il Azərbaycanın ümumi daxili məhsulun (ÜDM) real artım tempi 2,4% təşkil edərək 118,4 milyard manata çatacağı gözlənilir. "Report" xəbər verir ki, bu barədə Maliyyə Nazirliyinin hazırladığı "Vətəndaşın büdcə bələdçisi"ndə bildirilib. Məlumata görə, qeyri-neft-qaz sektoru üzrə ÜDM 4,6% artaraq 84,2 milyard manata yüksələcəyi proqnozlaşdırılır.

Gələn il Azərbaycanın ÜDM-nin tərkibində qeyri-neft-qaz sektorunun payının 71,1%-ə bərabər olacağı gözlənilir. Bu, 2023-cü il üçün qeyri-neft-qaz sektorunun ÜDM-dəki gözlənilən payından 1,9 faiz bəndi çoxdur.

Gələn il neft-qaz sektorunun payı isə azalaraq 28,9%-ə enəcəyi proqnozlaşdırılır. 2024-cü ildə neft-qaz sektoru üzrə ÜDM real ifadədə 1,7% azalacaq.

"Vətəndaşın büdcə bələdçisi"ndə işğaldan azad olunan rayonlarla bağlı xərclərə də toxunulub. Belə ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 11,2 milyard manatdan çox vəsait ayrılıb.

"Bu il azad edilmiş rayon və şəhərlərdə bir sıra iri infrastruktur obyektlər istifadəyə verilib. Artıq Laçın rayonuna və rayonun Zabux kəndinə, Tərtər rayonun Talış kəndinə, Füzuli şəhərinə doğma sakinlərin qovuşması, eləcə də Zəngilana 2022-ci ildə başlanmış geridönüşün növbəti mərhələsi baş tutub", - bələdçidə qeyd olunub.



# Tibbi tullantılar düzgün idarə edilməlidir



Rauf Hacıyev

Ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev tibbi tullantıların idarə edilməsinin təkcə əhalinin qorunması üçün yox, ətraf mühitin mühafizəsi üçün də önəmli məsələ olduğunu bildirib.
"Report" xəbər verir ki, o, bunu Səhiyyə, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin birgə təşkilatçılığı ilə tibbi tullantıların düzgün idarə olunmasına dair tibb işçiləri üçün keçirilən maarifləndirici tədbirdə deyib.
R.Hacıyev qeyd edib ki, tibbi tullantıların düzgün idarə olunması onların çeşidlənməsi, toplanması və saxlanılması prosesi ilə başlayır: "Tibbi tullantıların düzgün utilizasiya edilməməsi infeksiyaların yayılması, su mənbələrinin çirklənməsi və təhlükəli maddələrin buraxılması daxil da olmaqla ciddi risklər yaradır. Bu tullantıların tələblərə uyğun daşınması və zərərsizləşdirilməsi əhəmiyyətlidir. Həmçinin bu sahədə aidiyyəti qurumların koordinasiyalı əlaqəli işi önəmli yer tutur. Səhiyyə, Ekologiya və Təbii Sərvətlər nazirlikləri tərəfindən tibbi tullantıların idarə edilməsi sahəsində koordinasiyalı fəaliyyətin təmin edilməsi məqsədilə işçi qrup tullantıların idarə olunması sahəsində mövcud vəziyyətin daha ətraflı öyrənilməsi, bu sahədə problemlərin aradan qaldırılması və zəruri tədbirlərin həyata keçirilməsi üçün təkliflər hazırlayıb. İşçi qrup çərçivəsində bu sahədə fəaliyyətin təkmilləşdirilməsi məqsədilə mütəmadi görüşlər keçirilir və müzakirələr aparılır".
Nazir müavini vurğulayıb ki, bu sahədə işlər daha da gücləndirilməli və aidiyyəti qurumlarla birlikdə tibbi tullantıların daha səmərəli idarəsinə nail olunmalıdır.


# "Nar" Azərbaycan Voleybol Federasiyasının rəsmi tərəfdaşıdır

"Nar" ölkədə voleybolun inkişafına və təbliğinə mühüm töhfə məqsədi ilə Azərbaycan Voleybol Federasiyasının (AVF) rəsmi tərəfdaşı oldu. Əməkdaşlıq çərçivəsində mobil operator qadınlar və kişilər arasında yerli çempionatın keçirilməsinə dəstək göstərəcək.
"Nar"ın dəstəyi ilə 2023-2024-cü ilin voleybol mövsümü artıq start götürüb. Voleybol həvəskarlarına ölkə çempionatının oyunları izləmək və dəstək olmaq üçün giriş sərbəstdir. "Nar" Azərbaycan Voleybol Çempionatında öz komandasını təmsil edən bütün voleybolçularımıza uğurlar arzu edir.
Voleybol idman növünü yerli və beynəlxalq səviyyədə təbliğ etmək məqsədi ilə "Nar" 2017-ci ildə qadın voleybolçular arasında Avropa çempionatının rəsmi telekommunikasiya tərəfdaşı kimi çıxış edib.
Korporativ sosial məsuliyyət (KSM) strategiyasına uyğun olaraq "Nar" ölkədə sağlam həyat tərzini təbliğ edərək gənclər arasında voleybol daxil olmaqla, müxtəlif idman növlərinə marağın artmasını dəstəkləyir. Mobil operatorun gerçəkləşdirdiyi KSM layihələri haqqında nar.az/projects səhifəsindən məlumat əldə edə bilərsiniz.
"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



ƏJDAHA İLİ ÖZÜ İLƏ HANSI DƏBİ GƏTİRƏCƏK?

# DƏRİ GÖDƏKÇƏ, EKO ÇANTA, RƏNGLİ CORABLAR




**2024-cü ilin əsas rəngi çəhrayı və narıncının qarışığı olan “Peach Fuzz” (şaftalı tükləri) seçilib. Bu rəng ruhu, zehni və bədəni zənginləşdirən enerjiyə sahibdir.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Pələng ili ilə vidalaşır, yaşıl əjdahanı qarşılayırıq. 2023-cü ilin dəbi, sevilən rəngləri, geyim üslublarını da pələnglə yola salırıq. Bəs görəsən, qarşıdan gələn Əjdaha ili özü ilə hansı dəbi, aksesuarları gündəmə gətirəcək? 2024-ci il hansı geyim trendləri ilə gözümüzü oxşayıb, həyatımızı rəngləndirəcək? “Kaspi” qəzeti modelyer dizayner Xəyalə Məsimova ilə ilin dəblərindən danışıb.

### İLİN DƏBİ NECƏ FORMALAŞIR?

Modelyer deyir ki, ilin geyim dəbləri insanların həyat tərzi, dünyada baş verən qlobal hadisələr əsasında formalaşır: “Hər ilin dəbinə yön verən, dəqiqləşdirən böyük brendlərdir. Bəzi insanlar düşünür ki, ilin moda trendləri brendlərin öz kolleksiyalarında istifadə etdikləri rənglərdən, geyimlərdən, kəsim formalarından asılıdır. Amma elə deyil. İnsanların həyat tərzi, dünyadakı proseslər rənglərə də təsir göstərir”.




### İLİN RƏNGİ – 13-1023 OLACAQ

Həmsöhbətimiz deyir ki, 2024-cü ilin əsas rəngi şaftalı tonlarıdır: “İlin rəng seçiminə ABŞ Rəng İnstitutu “Pantone” qərar verir. Şirkət həmin il dünyada olan qlobal hadisələri müzakirə edir, mütəxəssislərdən fikir alır və bu fikirlərə əsasən, rəng kataloqunu ortaya çıxarır. Çünki hər bir rəng tonunun öz aurası var. Növbəti ildən gözləntilərimiz bizə bu rənglərlə çatdırılır. 2024-cü ilin əsas rəngi çəhrayı və narıncının qarışığı olan “Peach Fuzz” (şaftalı tükləri) seçilib. Bu rəngin kodu 13-1023-dür. Bu kodla siz dünyanın istənilən yerində eyni rəngi ala bilərsiniz. “Pantone” bildirib ki, həmin rəng ruhu, zehni və bədəni zənginləşdirən enerjiyə sahibdir. Şaftalı tonları builki müharibələr, dünyada baş verən qlobal problemlərin həllinin tapmasını simvolizə edir. Çünki bu rəng daha sakit, barışcıl, insana doğmalıq hiss etdirən, yumşaqlıq gətirən hesab olunur. İnsanlar üzərlərində şaftalının tonlarını daşıdıqda rahatlıq, doğmalıq, şəffaflıq hiss edir və ötürürlər. “Pantone” 2024-cü ildə şaftalı rəngdən ilhamlanaraq müsbət enerjini yaymağı hədəfləyir”.



Xəyalə Məsimova

### “PANDEMİYA GEYİM TƏRZİMİZİ DƏYİŞİB”

Geyim tərzimizə gəldikdə isə, modelyerin sözlərinə görə, biz hələ də pandemiya dövründə evdə qaldığımız günlərin geyim rahatlığından çıxa bilmirik: “İnsanlar xüsusilə, 2020-ci ildən sonra rahat geyimə öyrəşiblər. Pandemiyadakı həyat tərzimiz geyimlərimizə də ciddi şəkildə təsir edib. İnsanlar uzun müddət distant təhsil aldılar, işlərini onlayn idarə etdilər. Hər kəs ev mühitinə öyrəşdi. Bu, onların geyimlərinə də sirayət etdi. İndiyə qədər bu rahatlığı müşahidə edirik. İnsanların qarderobunda maksimalist geyim tərzləri minimalistlə əvəzlənib. Bu, 2024-cü ildə də davam edəcək. Çünki insanlar maddiyyata və görünüşə deyil, mənəvi dünyalarının zənginliyinə üstünlük verirlər və bunu geyimlərində göstərirlər”.

## DƏBDƏ 90-CI İLLƏRƏ QAYIDIRIQ?

Mütəxəssis vurğulayır ki, dəb illərdir ki, təkrarlanır: “Müşahidə etsək, görərik ki, illər öncəsinin dəbi yenidən müxtəlif formalarda günümüzə qayıdır. Məsələn, qol kəsimi daha aşağıdan olan cins pencəklər, dəri gödəkçələr 80-90-cu illərdə istifadə olunurdu. Bu geyimlər 2024-cü ilin də dəbini formalaşdıracaq. Sadə kəsimlərdən, daha sadə baza parçalardan istifadə ediləcək. 2024-cü ilin yaz və yay aylarında pambıq və kətan parçalar, kətan eko çantalar çox dəbdə olacaq. Bu il, əsasən, minimalist çanta növləri çoxluq təşkil edəcək, amma böyük çantalardan da istifadəyə üstünlük veriləcək. 2024-cü ilin qış kolleksiyasında isə daha çox dəri gödəkçələr, bol kəsim pencəklər dəbdə olacaq. Paltolar klassikadır və öz aktuallığını bu il də itirməyəcək. Sadəcə, paltolarda klassik kəsimlər deyil, bol kəsimlərə üstünlük veriləcək”.



### RƏNGLİ CORABLAR VƏ BROŞLAR

Dəbi formalaşdıran əsas nüanslardan biri olan aksesuarlara gəldikdə isə, mütəxəssis deyir ki, 2024-cü ildə aksesuarlarda daha çox rəngli corablardan istifadə olunacaq: “Corabların rəngi, əsasən, qırmızı, sarı, yaşıl, daha açıq və daha canlı tonlarda olacaq. Bu aksesuarlar geyimdən ön planda olmalıdır. İstifadə olunacaq digər aksesuarlar isə, yaxa broşlarıdır. Ümumiyyətlə, broşlar istənilən tərzdə istehsal olunur. Daha çox boğazlı köynəklərin, paltoların üzərində istifadəsi gözlənilir”.

## QADINLAR DA QALSTUKA ÜSTÜNLÜK VERƏCƏKLƏR

2024-cü ilin maraqlı trendlərindən biri də qalstuklardır. Kişilərdə görməyə adət etdiyimiz qalstuklar bu il qadınların da qarderoblarında çoxluq təşkil edəcək. 2024-cü ildə kişilərlə yanaşı, qadınlar da geyim kombinasiyalarında qalstuklara üstünlük verəcəklər.

### KİŞİLƏRİN GEYİMLƏRİNİN ƏSAS DƏBİ MAVİ KÖYNƏKLƏR OLACAQ

Kişi geyimlərinin isə əsas dəbi mavi köynəklərdir. Bu rənglər əvvəlki illərə nisbətən daha aktual olacaq. Moda mütəxəssislərinin fikrincə, bu rəngi qara, bənövşəyi, qəhvəyi köynəklər izləyəcək. Kişilər də boş və rahat köynəklərə, geyimlərə üstünlük verəcəklər. Ağ, qara, boz və mavi kimi neytral palitra çalarları bu il də dəb olaraq qalır. Həmçinin karqo şalvarlar bu ilin trendləri arasındadır.

Həmsöhbətimiz sonda vurğuladı ki, istər kişi, istər qadın özünə yaraşan geyimi tapmalıdır: “Geyim mütləq bədənə, rəngə uyğun olmalıdır. Yəni ilin dəbi sənə yaraşmırsa, onu geyinmək məcburiyyətində deyilsən. Hər kəs öz bədənini, həyat tərzini tanıyıb ona uyğun geyim seçimi etməlidir”.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
30 DEKABR ŞƏNBƏ 2023
www.kaspi.az



## SƏKKİZ İDMANÇIMIZDAN OLİMPİYA LİSENZİYASI

Yeniyetmə cüdoçularımız Avropa çempionatında komanda yarışları tarixində ilk qızıl medalı əldə ediblər. Dünya çempionatında isə onlar fərdi yarışlarda səkkiz medalla (iki qızıl, üç gümüş, üç bürünc) ümumi hesabda birinci olublar. Bu, yığma komandamızın dünya çempionatlarında həm medalların sayına, həm də əyarına görə əldə etdiyi ən yaxşı nəticədir.

Onu da qeyd edək ki, minifutbol üzrə dünya çempionatında Azərbaycan millisi yarımfinaladək irəliləyərək böyük uğur qazanıb. "Qarabağ" klubu isə Avropa Liqasının qrup mərhələsində ikinci yeri tutaraq tarixində ilk dəfə turnirin pley-off mərhələsinə yüksəlib.

Bu il Azərbaycanın səkkiz idmançısı Paris-2024 Yay Olimpiya Oyunlarına lisenziya əldə ediblər. Bunlar güllə atıcısı Ruslan Lunyov, boksçular - Məhəmməd Abdullayev və Murad Allahverdiyev, atlet Anna Skidan, bədii gimnast Zöhrə Ağamirova, Yunan-Roma güləşçiləri - Həsrət Cəfərov və Sənan Süleymanov, sərbəst güləşçi Maqomedxan Maqomedovdur.

# REKORDLARLA ZƏNGİN İL

Bu il Azərbaycanın 8 idmançısı Paris-2024 Yay Olimpiya Oyunlarına lisenziya əldə edib. Eyni zamanda, sərbəst güləş yığmamız dördüncü, 23 yaşadək gənclərdən ibarət sərbəst güləş millimiz ardıcıl ikinci dəfə Avropa çempionu olub.






2023-cü il digər sahələrdə olduğu kimi, idman baxımından da hərəkətli keçib. Ümummilli liderin 100 illiyi münasibətilə "Heydər Əliyev ili" kimi qeyd olunan il ərzində ölkədə həm bu əlamətdar hadisə ilə bağlı müxtəlif idman yarışları, tədbirlər keçirilib, həm də təmsilçilərimiz beynəlxalq arenalarda ciddi nəticələr əldə ediblər. Bəzi yarışlarda idmançılarımız ümidləri doğrultmasa da, ümumən il rekordlarla zəngin olub.

### AZƏRBAYCANDA KEÇİRİLƏN BEYNƏLXALQ YARIŞLAR

İrimiqyaslı idman yarışlarının təşkilində bacarığını dəfələrlə göstərmiş Azərbaycan bu il də dünya idmanının əsas mərkəzlərindən olub. 2023-cü ildə ölkəmiz kişi və qadın idman gimnastikası üzrə Dünya Kuboku, bədii gimnastika üzrə Avropa çempionatı, Formula 1 üzrə Azərbaycan Qran-Prisi, taekvondo üzrə dünya çempionatı, şahmat üzrə Dünya Kuboku, atıcılıq üzrə dünya çempionatı, çimərlik futbolu üzrə dünya çempionatının Avropa zonasının seçmə mərhələ oyunları kimi nüfuzlu beynəlxalq yarışlara ev sahibliyi edib. Eyni zamanda, Yaponiyanın məşhur MMA təşkilatı "Rizin" ilk dəfə bu ölkədən kənarda, məhz Azərbaycanda döyüş gecəsi keçirib.

### UĞURLU NƏTİCƏLƏR

Bu il Azərbaycan idmançıları böyük idman yarışlarında çıxış ediblər. Bunların arasında Avropa Oyunları, MDB Oyunları, Ümumdünya Yay Universiadası, Beynəlxalq Universitet İdman Festivalı kimi multi-idman yarışlarını, dünya və Avropa çempionatlarını qeyd etmək olar. Nəticələr də kifayət qədər ürəkaçandır.

Bədii gimnastika üzrə qrup hərəkətləri komandamız ilk dəfə Avropa çempionu adını qazanıb. Zöhrə Ağamirova isə fərdi proqramda Avropa medalını qazanan Azərbaycanda yetişmiş ilk gimnast olub.

Şahmat üzrə Dünya Kubokunda Nicat Abasov yarımfinala qədər yüksəlməklə adından bəhs etdirib. Digər şahmatçımız Günay Məmmədzadə Çindən qızıl medalla qayıdıb. 18 yaşlı Ayan Allahverdiyevanın dünya çempionluğu, qadın şahmatçılardan ibarət millimizin şahmat üzrə Avropa çempionatının gümüş medalını qazanması isə bir daha azərbaycanlı zəkasını dünyaya göstərmiş olub.

Eyni zamanda, sərbəst güləş yığmamız dördüncü, 23 yaşadək gənclərdən ibarət sərbəst güləş millimiz ardıcıl ikinci dəfə Avropa çempionu olub. Serbiyanın paytaxtı Belqradda keçirilən dünya çempionatında yunan-Roma güləşçilərimiz iki qızıl, üç gümüş medal qazanaraq tarixində ilk dəfə komanda hesabında dünya çempionu adını qazanıb. Yunan-Roma güləşi üzrə U-20 milli komandamız isə İspaniyada keçirilən qitə çempionatının qalibi olub.



### İDMAN ARENASINDA QARDAŞLIQ

Türkiyədəki ağır zəlzələyə ən böyük dəstək Azərbaycandan oldu desək, yanılmarıq. İdman ictimaiyyəti də qardaş ölkəyə kömək etmək üçün alından gəlni əsirgəməyib. Bu il Bakıda "Qarabağ" - "Qalatasaray" və "Sabah" - "Beşiktaş" xeyriyyə matçları keçirilib. Hər iki görüşdən əldə edilən gəlir zəlzələdən əziyyət çəkənlər üçün göndərilib. Daha sonra türkiyəli idmançılar beynəlxalq arenada ölkəmizə dəstəklərini nümayiş etdiriblər. Ermənistanda keçirilən ağır atletika üzrə Avropa çempionatında Azərbaycana qarşı təxribatdan sonra ağırlıqqaldıranlarımız yarışdan imtina ediblər. Qardaş Türkiyə idmançıları isə qazandıqları medalları Azərbaycana həsr edərək birlik göstəriblər. Azərbaycan Prezidentinin tapşırığı ilə onlar Bakıya dəvət olunublar.

## İDMAN BÖYÜK QAYIDIŞIN TƏRKİB HİSSƏSİ KİMİ



Foto: Sabir Məmmədov / Global Media Group

İşğaldan azad olunan ərazilərdə görülən bərpa-quruculuq işləri ilə yanaşı, həmin ərazilərdə idman tədbirlərinin təşkili də mühüm əhəmiyyət kəsb edir. Tarixi torpaqlarımızda artıq idman infrastrukturu qurulmaqdadır, müxtəlif növlər üzrə yerli bölmələr formalaşdırılır.

Həmçinin bu il, Bakıda startı verilən "Əziz Şuşa" beynəlxalq velosiped yarışına beş mərhələdən sonra Şuşada yekun vurulub. Ardınca Şuşada daha bir beynəlxalq turnir - 3x3 basketbol üzrə dünya qadın seriyasının mərhələ yarışı keçirilib. Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Prezident kuboku-2023" reqatası məhz işğaldan azad edilmiş Suqovuşanda start götürüb.

İlin sonunda isə Xankəndidə ilk dəfə futbol qarşılaşması keçirilib. Ölkəmizi beynəlxalq arenada qürurla təmsil edən, "Qarabağ"ın Azərbaycan Ordusunun adını daşıyan MOİK-lə matçının məhz Xankəndi şəhər stadionunda keçirilməsi ilin idman tədbirlərinə simvolik yekun olub.